QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 225 (6189) 16 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Ölkəmizin dünyaya göstərilən qardaşlıq birliyi:

# "Bir millət, iki dövlət"!



Bax 2

## "Human Rights Watch" Ermənistanın Azərbaycana qarşı kasetli silahlardan istifadə etməsinə dair növbəti hesabat yayıb




"Human Rights Watch" təşkilatı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc sakinlərinə və mülki obyektlərinə qarşı raket hücumları ilə bağlı apardığı...

Bax 3

## XİN: Azərbaycan Türkiyənin beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyini dəstəkləyir

Bax 4



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ABŞ tərəfindən Türkiyəyə qarşı birtərəfli sanksiyaların tətbiqi ilə bağlı açıqlama verib. Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, açıqlamada deyilir: "S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasına görə ABŞ tərəfindən Türkiyəyə qarşı birtərəfli şəkildə sanksiyaların tətbiqi qərarını qınayır və Türkiyəyə qarşı atıla...

## Əsirlikdən qaytarılan Bayram Kərimov və Amin Musayevin ailəsi sevinc içindədir




## Ermənilər Dilqəmlə Şahbazın geri qaytarılmasından niyə narahat oldular?



Əldə edilmiş razılığa əsasən, hamının-hamıya prinsipi əsasında əsir və girovların dəyişdirilməsi prosedurunun ardınca ermənilərin ictimai-siyasi rəyi yenidən hay-həşir salmağa başlayaraq bu dəfə Dilqəm Əsgərovla Şahbaz Quliyevin nəyə görə geri qaytarılmalarını...

Bax 7

## İsrailli ekspert: Bakıda Zəfər paradı Azərbaycan tarixində əlamətdar hadisədir

Bax 5



Bakıda Zəfər paradı erməni işğalçıları üzərində Azərbaycanın dəfedilməz və güclü qələbəsi, Ermənistanın tam kapitulyasiyası ilə başa çatan 44 günlük "Dəmir yumruq" əməliyyatına nöqtə qoydu. Bu hərbi parad Azərbaycan dövlətinin beynəlxalq nüfuzu barədə də çox şeydən xəbər verir. Bakıda parad olduqca təəssüratlı və çox layiqli keçdi. Tədbirdə XXI əsrin müasir yüksəktexnologiyalı Azərbaycan...

### "Xankəndindəki terrorçular Rusiya sülhməramlılarına arxayındır"



Bax 14

### Vaksinin qoruyuculuq müddəti nə qədərdir? - TƏBİB açıqladı



Bax 5

### Sual altındakı iflic Ermənistan



Bax 11

# Ölkəmizin dünyaya göstərilən qardaşlıq birliyi:
# “Bir millət, iki dövlət”!



**Prezident Rəcəb Tayyib Ərdoğan: “Hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanındayıq”**

**Prezident İlham Əliyev: “Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”**

***Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Bir millət, iki dövlət” tezisinə əsaslanır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.***

Dekabrın 10-da Azadlıq meydanında keçirilən Azərbaycanın 44 gün İkinci Qarabağ Müharibəsinin Zəfər Paradında Prezident İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir yerdə olması bir daha bu qardaşlıq birliyinin təcəssümüdür.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı bildirib ki, bu tarixi gündür və bu zəfər Paradında Türkmyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin paradda iştirakından şad olduğunu söyləyib: “Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir. Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

### “Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir”

“Bu zəfər tarixi zəfərdir”,-deyən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi: “Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”.

### “Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib”

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, işğalçı dövlətin bütün torpaqları yerlə-yeksan etsə də artıq ilk gündən həmin torpaqlarda yeni quruculuq bpşlayıb: “İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır”.

### “Azərbaycan öz istəyinə nail oldu, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdi”

“Qırx dörd gün ərzində Azərbaycan parlaq qələbə qazanaraq, Ermənistanı məğlub etdi. İşğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi”, - deyən Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı bildirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla - bu işğala, bu haqsızlığa son qoyulması, tarixi ədalətin zəfər çalması amalı ilə vuruşurdu və biz buna nail olduq. Ermənistan bizimlə rəqabət apara bilmədi”.

2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyaya və müqəddəs “Qurani-Kərim”ə əl basaraq Azərbaycanın ərazi bütövlüyünü qoruyacağına and içdiyini xatırladan Ali Baş Komandan deyib: “Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi”.

### “Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!”

“Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim”,-deyən Ali Baş Komandan İlham Əliyev bildirib ki, Türkiyə-Azərbaycan dostluğu əbədi olaraq qalacaqdır: “Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Mən isə demişdim ki, “Qarabağ Azərbaycandır və nida!”. Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!”

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: “Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir”

“Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm”,-deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qələbə Paradında çıxışı zamanı bildirib ki, Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir: “20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir”.

“Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir”, - deyən Rəcəb Tayyib Ərdoğan onu da bildirib ki, qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir: “Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək”.

### “Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq”

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu deyib: “Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq”.

Ardı Səh. 3

## Rəsmi xronika

Dekabrın 15-də Prezident İlham Əliyev “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında” Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş hərbi qulluqçular “Azərbaycan Bayrağı”, “Rəşadət” və “Vətənə xidmətə görə” ordenləri ilə təltif olunublar.

Silahlı Qüvvələrimizin 288 hərbi qulluqçusu “Azərbaycan Bayrağı” ordeninə layiq görülüb. Onlardan 56-sı ölümündən sonra bu ordenlə təltif olunub. “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunanların 2-si general-leytenant, 2-si general-mayor, 12-si isə polkovnikdir. Bundan başqa, 105 hərbçi 3-cü dərəcəli “Rəşadət” ordeni ilə təltif edilib. Onlardan 15-i ölümündən sonra bu ordenlə təltif olunub. Bu ordenə layiq görülənlərin 6-sı polkovnikdir.

Həmçinin 3 general-leytenant 1-ci dərəcəli, 9 hərbçi 2-ci dərəcəli, 331 hərbi qulluqçu isə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenlərlə təltif olunub. 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunan hərbi qulluqçuların 44-ü ölümündən sonra bu mükafata layiq görülüb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

# Ölkəmizin dünyaya göstərilən qardaşlıq birliyi: "Bir millət, iki dövlət"!

Əvvəli Səh. 2

**"Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür"**

"Gözəlliyinə qurban olduğumuz Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər artıq azaddır. Bu gün Azərbaycanın mili şairi, böyük mücahid Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş Zəfər paradında çıxışında söyləyib və bildirib ki, Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, otuz illik həsrət sona çatmışdır: "Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, otuz illik həsrət sona çatmışdır. Bundan sonra Türkiyə və Azərbaycan olaraq hədəfimiz bu torpaqları firavan, inkişaf etmiş, övladlarımız üçün yaşana bilən bir yerə çevirmək uğrunda mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir".

Sonda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur: "Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır".

Bəli, Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanır. Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir.

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.

**RƏFİQƏ KAMALQIZI**

# İtaliyanın daha üç bələdiyyə şurası Azərbaycana dəstək ifadə edib




***İtaliyanın Avellino əyalətinin Montoro bələdiyyə şurası, Kataniya əyalətinin Qravina bələdiyyə şurası və İserniya əyalətinin Rokkasikura bələdiyyə şurası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, etnik təmizləmə, soyqırımı siyasətini pisləyən və Azərbaycan xalqı ilə, xüsusilə də Ermənistanın hərbi təcavüzü nəticəsində həyatını itirən və yaralanan Gəncə, Bərdə və digər rayonların sakinlərinin ailə üzvləri ilə həmrəylik nümayiş etdirən sənədlər qəbul ediblər.***

AZƏRTAC xəbər verir ki, sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın Azərbaycana qarşı təcavüz siyasəti və ərazi iddialarından irəli gəldiyi, bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğu, Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı işi" ilə bağlı qərarında da Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonlarının Ermənistan tərəfindən işğal edildiyinin təsdiqləndiyi, həmin ərazilərdə yaşayan 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, azərbaycanlılara qarşı çoxsaylı müharibə cinayətləri, o cümlədən Xocalı soyqırımının törədildiyi bildirilib.

Sənədlərdə 30 ilə yaxın müddətdir ki, Azərbaycanın danışıqların uğurla nəticələnməsinə və ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə diplomatik yollarla regiona sülh gətirməyə yönəlik səylərinə baxmayaraq, Ermənistanın bəyanatları, təxribat xarakterli hərəkətləri və destruktiv siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların bloklandığı, Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi və 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvalarına qayıtmaqdan məhrum olduqları, ailə üzvlərinin məzarlarını belə ziyarət edə bilmədikləri vurğulanıb.

Sənədlərdə son aylarda Ermənistanın məqsədyönlü şəkildə silah və hərbi texnika idxalını əhəmiyyətli dərəcədə artırdığı, yeni müharibəyə hazırlaşmaq üçün hava hücumu sistemini intensiv şəkildə genişləndirdiyi və nəticədə 27 sentyabr tarixindən etibarən Azərbaycana qarşı yeni hərbi təcavüzə başladığı, qəsdən mülki obyektləri və mülki şəxsləri hədəfə aldığı diqqətə çatdırılaraq 94-dən çox mülki şəxsin ölməsi, 407-dən çox insanın yaralanması ilə nəticələnən Gəncə, Bərdə və sair şəhərlərin bombalaması qəti şəkildə pislənilib.

Sənədlərdə münaqişə ilə bağlı BMT TŞ və Baş Assambleyasının qətnamələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verərək Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş həmin ərazilərdən dərhal çıxarılmasının, azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvalarına qayıtmaq hüququnun təmin edilməli olduğu, 10 noyabr tarixində Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları Bəyanatın məhz münaqişəyə son qoymaq məqsədi daşıdığı vurğulanıb.

Sənədlərdə Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin fevral ayında İtaliyaya dövlət səfəri çərçivəsində imzalanmış "İtaliya Respublikası ilə Azərbaycan Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"yə istinad edilərək rəsmi İtaliyanın davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, bundan öncə oxşar sənədlər İtaliyanın Kataniya şəhər Şurası, Neapol şəhərinin Ottaviano və Liveri bələdiyyələri, Kaserta əyalətinin Santa Maria a Viko, Draqoni, Qalluççio və Presenzano bələdiyyələri və Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələri, İtaliyanın Milan şəhərinin Korbetta Bələdiyyə Şurası tərəfindən də qəbul edilib. Habelə İtaliya Deputatlar Palatasının xarici əlaqələr komissiyası Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti tərəfindən imzalanmış Bəyanatın müddəalarının yerinə yetirilməsinə çağıran qətnamə qəbul edib.

## "Human Rights Watch" Ermənistanın Azərbaycana qarşı kasetli silahlardan istifadə etməsinə dair növbəti hesabat yayıb

"Human Rights Watch" təşkilatı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc sakinlərinə və mülki obyektlərinə qarşı raket hücumları ilə bağlı apardığı araşdırmalara dair növbəti hesabat yayıb.

AZƏRTAC xəbər verir ki, hesabatda Ermənistanın və ya Dağlıq Qarabağdakı qondarma rejimin hərbi qüvvələrinin altı həftəlik müharibə dövründə Azərbaycanın yaşayış məntəqələrini dəfələrlə qadağan olunmuş silah-sursatlar vasitəsilə atəşə tutduğu bildirilir. Vurğulanır ki, qadağan olunmuş silahların istifadəsi müharibə qanunlarının pozulmasıdır.

Hesabatda qeyd edilir ki, "Human Rights Watch"un tədqiqatçıları 2020-ci ilin noyabr ayında Azərbaycana səfərləri zamanı ölkənin üç rayonunda kasetli silah-sursatdan istifadə olunduğu dörd hücumu sənədləşdiriblər. Bu hücumlar nəticəsində 2-si uşaq olmaqla, ən azı 7 mülki şəxs həlak olub, eyni zamanda, 2-si uşaq olmaqla, 20 mülki şəxs yaralanıb.

"Human Rights Watch"un Avropa və Orta Asiya üzrə direktoru Hugh Villiamson bildirib ki, kasetli silahlardan istifadə beynəlxalq sazişlə qadağan olunub. Bu silahların xüsusilə də mülki əhaliyə qarşı istifadəsi qəbuledilməzdir.

Hesabatda kasetli silahların xüsusiyyətləri barədə də məlumat verilir. Qeyd edilir ki, onlar top, raket və minaatanlar vasitəsilə yerdən və ya təyyarə ilə havadan atıla bilər. Tipik olaraq bu sursatlar havada partlayır və ondan ayrılan bir çox bomba hissəcikləri geniş əraziyə yayılır. Hücum zamanı bölgədəki hər kəs - istər döyüşçülər, istərsə də mülki insanlar əlavə ölüm və ya yaralanma riski altında qalırlar. Bundan əlavə, kasetli sursatlar tez-tez ilkin təsir nəticəsində partlaya bilmir və onlar minalar kimi təhlükə mənbəyi olaraq qalır.

Hesabatda bu ilin oktyabr ayında Bərdə şəhərinə atılan və 21 mülki şəxsin ölümünə, 70 nəfərin yaralanmasına səbəb olan kasetli silah hücumu da sənədləşdirilib. Noyabr ayının birinci yarısında Azərbaycana araşdırma səfəri zamanı "Human Rights Watch" Ermənistan silahlı qüvvələri tərəfindən biri Bərdə, ikisi Goranboy, biri Tərtər rayonunda olmaqla dörd kasetli silahlı hücumu sənədləşdirib. Kasetli silahlar mülki və hərbi obyektləri ayıra bilmədiyi üçün onların istifadəsi müharibə qanunlarını pozur.

Bildirilir ki, təşkilatın nümayəndələri noyabrın 27-də Yerevanda Ermənistan Xarici İşlər Nazirliyinin rəsmisi ilə görüşüblər. Nazirliyin rəsmisi Ermənistan ordusunun hərbi arsenalında kasetli silah-sursatların olmasını təkzib edib. Beynəlxalq Strateji Araşdırmalar İnstitutu tərəfindən dərc edilən illik "Hərbi Balans-2020" daxil olmaqla, bir sıra beynəlxalq nəşrlər Ermənistanın "Toçka-U" və "İsgəndər" ballistik raketlərinə, "Smerç" və Çin istehsalı olan WM-80 çoxlüləli raket atıcılarına sahib olduğunu və bunların hamısının kasetli bombalar ata biləcəyini deyirlər. "Human Rights Watch" Dağlıq Qarabağdakı qüvvələrin kasetli silahlara sahib olmadığının fərqindədir. Belə olan halda Ermənistan silahlı qüvvələrinin bu hücumları həyata keçirdiyi və ya Dağlıq Qarabağdakı hərbi qüvvələri bu döyüş sursatları ilə təmin etdiyi ehtimal olunur. Qadağan edilmiş silahlar kimi, kasetli döyüş sursatları heç bir halda heç kim tərəfindən istifadə edilməməli və ya təmin edilməməlidir.

Qeyd edək ki, hesabatda kasetli silahların birbaşa hücumuna məruz qalmış azərbaycanlı mülki şəxslərin fikirləri və müsahibələri də yer alıb.

# Ceyhun Bayramovla xorvatiyalı həmkarı arasında telefon danışığı olub




Dekabrın 15-də xarici işlər naziri Ceyhun Bayramovun Xorvatiya Respublikasının xarici və Avropa işləri üzrə naziri Qordan Qrliç Radman ilə telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, C.Bayramov Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən Müharibəsi barədə qarşı tərəfə ətraflı məlumat verib.

Nazirlər bölgədə mövcud son vəziyyəti, eləcə də 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli bəyanatdan irəli gələn məsələlərin icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Bu razılaşmanın icrasının bölgədə dayanıqlı sülh, təhlükəsizlik və rifahın təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb. Nazirlər, habelə ikitərəfli əməkdaşlıq münasibətlərini, eləcə də qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

# XİN: Azərbaycan Türkiyənin beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyini dəstəkləyir



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ABŞ tərəfindən Türkiyəyə qarşı birtərəfli sanksiyaların tətbiqi ilə bağlı açıqlama verib. Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, açıqlamada deyilir: "S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasına görə ABŞ tərəfindən Türkiyəyə qarşı birtərəfli şəkildə sanksiyaların tətbiqi qərarını qınayır və Türkiyəyə qarşı atılan bu addımı ikili standartların tətbiq edilməsi kimi qiymətləndiririk. Türkiyə tərəfinin bu məsələni dialoq və diplomatiya yolu ilə həll edilməsi təklifinə müttəfiq ölkə olan ABŞ tərəfindən qarşılıq verilməməsi təəssüf doğurur. Azərbaycan hər zaman olduğu kimi Türkiyənin yanındadır və onun beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyini dəstəkləyir. Türkiyənin milli təhlükəsizliyini ehtiva edən bu məsələnin dialoq vasitəsilə tezliklə həlli üçün müvafiq təxirəsalınmaz addımların atılmasına çağırırıq".

# Hikmət Babaoğlu: "Prezident İlham Əliyevin siyasətinin mərkəzində hər zaman Azərbaycan vətəndaşının mənafeyi durur"



Vətən müharibəsində mülki şəxslərə və onların mülkiyyətinə dəymiş ziyanın aradan qaldırılması Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Hələ müharibənin aktiv fazası başa çatmamış bu istiqamətdə müvafiq addımlar atılmağa başlandı və evləri erməni vandalları tərəfindən yararsız hala salınan vətəndaşlarımızın müvəqqəti məskunlaşdırılması və zəruri məişət ehtiyaclarının qarşılanması ilə bağlı operativ tədbirlər həyata keçirildi. Sonrakı mərhələdə isə yaranmış problemin birdəfəlik həlli ilə bağlı qərarlar qəbul edildi. Bununla bağlı Prezident İlham Əliyev tərəfindən noyabrın 6-da "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalandı.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu AZƏRTAC-a açıqlamasında bildirib ki, Sərəncama əsasən Azərbaycan Respublikası Baş nazirinin rəhbərliyi ilə Dövlət Komissiyası yaradıldı və dərhal Sərəncamın icrası ilə bağlı aidiyyəti üzrə 11 işçi qrupu yaradıldı. Beləliklə, 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq addımlar atıldı. İlkin qiymətləndirmələr başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin növbəti Sərəncamı ilə problemin aradan qaldırılması üçün tədbirlər görüldü. Bu Sərəncama görə, təcavüz nəticəsində dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardımın ayrılması qərara alınıb. Maliyyələşməni nəzərdə tutulan maddi yardım yaşayış evlərin sahiblərinə və ya onların qanuni nümayəndələrinə bank vasitəsilə ödəniləcək.

Deputat qeyd edib ki, bu, şəffaflığı təmin etməklə yanaşı, zərəçəkənlərin ayrılan yardımı qısa müddətdə və maneəsiz almasına kömək edəcək. Yardımın miqdarı isə dəymiş zərərə adekvat olmaqla həm də şəxsi ziyanı da əhatə edəcək: "Belə ki, evləri dağıdılmış və ya qəzalı vəziyyətə salınmış mülki əhali məişət əşyalarına görə 6000 manat və əlavə olaraq hər bir ailə üzvü şəxsi əşyalarına görə 1500 manat maddi yardım alacaq. Qismən ziyan dəymiş evlər üzrə isə ailə üzvlərin sayından asılı olmayaraq, hər bir ailəyə 1000 manat maddi yardım veriləcək. Növbəti mərhələdə isə mülki əhaliyə, dövlətə və sahibkarlıq fəaliyyəti subyektlərinə məxsus dağıdılmış və ya qəzalı vəziyyətə salınmış, qismən ziyan dəymiş yaşayış və qeyri-yaşayış sahələrinin təmir-bərpası işlərinin, həmçinin nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsinə başlanılacaq. Göründüyü kimi, zərərçəkmiş vətəndaşlarımıza dəyən ziyan ayrı-ayrı komponentlər üzrə xüsusi diqqətlə qiymətləndirilib və bundan sonrakı mərhələdə də vəziyyətə uyğun olaraq növbəti addımlar atılacaq. Bütün bunlar bir daha Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaşın mənafeyinin öndə olduğunu göstərir".

# DSX-nin rəisi Prezidentə yazır: Bu tarixi Zəfərin müəllifi və ən əsas təminatçısı Sizsiniz!



Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadən xəbər verir ki, həmin məktublardan biri də Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən yazılıb:

Möhtərəm cənab Prezident.

Böyük qürur hissi ilə məruzə edirəm ki, Azərbaycan tarixinin ən böyük sərkərdəsi kimi Müzəffər Ali Baş Komandanlığınız altında Vətən Müharibəsində iştirak etmək hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəfdir.

Bu tarixi Zəfərin müəllifi və ən əsas təminatçısı - siyasətilə, iradəsilə, qətiyyətilə, cəsarətilə bütün dünyanın təzyiqlərinə baxmayaraq, həm döyüş meydanında, həm diplomatiya müstəvisində, həm də informasiya müharibəsində düşmənə sarsıdıcı və həlledici zərbələr vuran Sizsiniz!

Bu gün Ermənistan silahlı qüvvələrinin əzəli torpaqlarımızdan qovulması və dövlət sərhədlərimizin bütövlüyünün bərpa edilməsi, işğaldan azad olunan ərazilərimizdə üçrəngli Dövlət bayrağımızın ucaldılması uğrunda müqəddəs Vətən müharibəsinin iştirakçısı olan hər bir Azərbaycan sərhədçisi Ali Baş Komandanlığınız ilə əldə olunan şanlı Qələbənin sevincini yaşayır.

44 günlük Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidməti qarşısında qoyduğunuz döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələr tam səfərbər edilmiş, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları yaxından iştirak etmişlər.

Vətən müharibəsinin ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri tərəfindən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazi azad edilmiş, o cümlədən 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirilmişdir. Qədim Xudafərin körpüsündə və dövlət sərhədlərimiz boyu Dövlət bayrağımız sancılmış, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklər azad edilmişdir.

Dövlət Sərhəd Xidmətinin "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, raket sistemləri, zenit-raket kompleksləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirilmiş, ümumilikdə 290 düşmən hədəfi məhv edilmişdir.

Azərbaycan dövlətçiliyinə, Azərbaycan Respublikasının Prezidentinə sadiqliyi ilə seçilən, Ali Baş Komandanlığınız altında işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən, rəşadət və qəhrəmanlıq nümunələri göstərən hərbi qulluqçularımızın döyüş məharətinin Zati-aliniz tərəfindən yüksək qiymətləndirilməsi, 41 nəfər Azərbaycan sərhədçisinə "Vətən Müharibəsi Qəhrəmanı" adının, "Zəfər" və "Qarabağ" ordenlərinin verilməsi Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

Azərbaycan sərhədçisinə göstərdiyiniz bu ali diqqət və qayğıya, yüksək etimada görə şəxsən öz adımdan və Dövlət Sərhəd Xidmətinin bütün hərbi qulluqçuları adından Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü ifadə edirəm.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Sizi əmin edirəm ki, Vətəninə, dövlətinə, Prezidentinə xidmət etmək qürurunun daşıyıcısı olan hər bir Azərbaycan sərhədçisi bundan sonra da əzmlə xidmət edəcək, doğma Azərbaycanımızın təhlükəsizliyi və inkişafı naminə səy və bacarığını əsirgəməyəcəkdir!

# "Bu gün ölkəmiz təkcə regionun deyil, dünyanın ən güclü dövlətlərindəndir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz Ermənistanın işğalı altında olan ərazilərimizi azad etdi. Ermənistan ordusuna məxsus olan, pərakəndə şəkildə gizlənən azsaylı döyüşçülər isə tam şəkildə zərərsizləşdirildi. Artıq əminliklə deyə bilərik ki, Ermənistanın faşist idarəçilik üsulu məhv edildiyinə görə bundan sonra regionda sülh bərqərar olacaqdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ona görə hərbi yolla həll olundu ki, onun həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri 30 il ərzində Ermənistanı öhdəliklərini icra etməyə məcbur etmədi. Regionun uzun müddətdən bəri bu sülhə ehtiyacı olsa da, 30 ilə yaxın davam edən münaqişəni heç kəs yoluna qoymağa tələsmirdi. Sanki münaqişənin hərbi həlli yoxdur deməklə onu unutdurmağa cəhd edirdilər. Təbii ki, bu da Ermənistan hakimiyyətini tam şəkildə qane edirdi və münaqişənin həllinin qeyri-müəyyən vaxta qədər təxirə salınması demək idi". SİA xəbər verir ki, bunu açıqlamasında Milli Məclisin Sədr müavini Adil Əliyev deyib.

Deputatın sözlərinə görə, Cənab Prezident İlham Əliyev dəfələrlə bu münaqişənin həll edilməsi üçün mandat almış dövlətlərdən münaqişənin həmişəlik həllini tələb etməsinə baxmayaraq, beynəlxalq təşkilatlar heç bir ciddi addım atmırdılar: "Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn ən əsas maddələrindən biri olsa da, bu normanın pozulmasının qarşısının alınması istiqamətində ciddi iş görülmürdü. Beynəlxalq vasitəçilər öz imkanlarından, potensiallarından istifadə edərək Ermənistanı işğal etdiyi əraziləri tərk etməyə məcbur edə bilərdi, lakin vasitəçilər heç bir ciddi addım atmadılar. Halbuki Ermənistana ciddi sanksiyalar tətbiq olunsaydı, bu işğalçı ölkə hərbi qüvvələrini geri çəkərdi. Lakin bu baş vermədiyinə görə, ölkəmiz münaqişəni hərbi yolla həll etmək məcburiyyətində qaldı və uğurla həll etdi. Bu gün heç kəsə sirr deyil ki, Azərbaycanın regionun deyil, dünyanın qüdrətli ölkələrindən birinə çevrilməsi bəzi qüvvələri çox narahat edir. Ölkəmizin regionda 30 ilə yaxın davam edən təcavüzə cəmisi 44 gün ərzində son qoymasını həzm edə bilməyən kifayət qədər qüvvələr var. Onlar, hətta müharibə dövründə istər aşkar, istərsə də gizli yollarla Ermənistana dəstək olmağa cəhd etdilər. Lakin bu dəstəklərin qarşısı alınmaqla yanaşı, Ermənistana çox ciddi zərbələr vuruldu. Tarixi təcrübəyə istinadən deyə bilərik ki, bu məğlubiyyət de-fakto olaraq Ermənistanın faşist hakimiyyətinin sonu deməkdir. Çünki Ermənistan məğlub olaraq kapitulyasiyanı imzalamağa məcbur edildi. Hətta müharibənin əvvəlindən də bu müharibənin Ermənistan hakimiyyətinin sonu olacağı barədə proqnozlar verilirdi. Hazırda görürük ki, Ermənistanda hər gün mitinqlər davam edir. Xüsusilə bir hala diqqət çəkmək lazımdır ki, pandemiyadan əvvəl belə, Ermənistan büdcəsində çox ciddi kəsir yaranmışdı. Pandemiyanın Ermənistanda tüğyan etməsi isə bu ölkənin iqtisadiyyatını tam məhv etdi. Bütün bunlara əsasən demək olar ki, Ermənistan ölkə kimi məhv olmağın bir addımlığındadır". A.Əliyev vurğulayıb ki, bu ölkənin Azərbaycana qarşı təxribatlara əl atmasının əsas səbəblərindən biri orada mövcud olan hakimiyyətin öz ölkəsindəki iqtisadi böhranı gizlətmək istəməsi idi: "Lakin Şanlı Ordumuzun düşmənin böyük sayda texnikasını və şəxsi heyətini məhv etməsi, salamat qalan hərbi texnikanı isə qənimət kimi götürməsi onu deməyə əsas verir ki, Ermənistan bundan sonra da öz istifadəsində olmayan və ya məhv edilmiş texnikaların pulunu uzun müddət ödəməli olacaqdır. Təbii ki, heç bir Ermənistan vətəndaşı Azərbaycan Ordusunun sərəncamında olan və ya ordumuz tərəfindən məhv edilmiş texnikanın pulunu ödəmək istəmir. Müharibədə verdiyi itkilər isə hələ Ermənistanın uzun müddət özünə gəlməsini mümkünsüz edir.

Görünən odur ki, Paşinyan bu məğlubiyyəti ilə həm özünü, həm də dövləti çıxılmaz vəziyyətə salmışdır və Ermənistan artıq başa düşür ki, bundan sonra Azərbaycan xalqının heysiyyəti ilə oynamaq onlar üçün daha ağır nəticələrə səbəb ola bilər".

***Aysel Məmmədova***

# İsrailli ekspert: Bakıda Zəfər paradı Azərbaycan tarixində əlamətdar hadisədir



***Bakıda Zəfər paradı erməni işğalçıları üzərində Azərbaycanın dəfedilməz və güclü qələbəsi, Ermənistanın tam kapitulyasiyası ilə başa çatan 44 günlük "Dəmir yumruq" əməliyyatına nöqtə qoydu. Bu hərbi parad Azərbaycan dövlətinin beynəlxalq nüfuzu barədə də çox şeydən xəbər verir. Bakıda parad olduqca təəssüratlı və çox layiqli keçdi. Tədbirdə XXI əsrin müasir yüksəktexnologiyalı Azərbaycan Ordusunun bütün qüdrəti nümayiş etdirildi.***

AZƏRTAC xəbər verir ki, bu barədə beynəlxalq münasibətlər sahəsində israilli ekspert, İsrailin "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut bildirib.

İsrailli ekspertin fikrincə, Azərbaycan öz qarşısına qoyduğu vəzifəni - öz ərazilərinin tam qaytarılması məsələsini əminliklə və sərt şəkildə məntiqi sona çatdırdı. Arye Qut deyib: "Bu işdə heç bir yarımçıq variantlara baxılmırdı. Müasir müharibədə isə döyüş əməliyyatlarının təminatında qabaqcıl yüksəktexnoloji vasitələrə sahib olan kəs qalib gəlir. 44 günlük müharibə zamanı erməni işğalçılarına qarşı təkcə İsrail və Türkiyə istehsalı olan pilotsuz zərbə uçuş aparatlarını yada salmaq kifayətdir və bu barədə çox danışmaq olar. Bu gün faktdır ki, Azərbaycan - postsovet məkanında 30 ildən sonra öz ərazilərini geri qaytaran və öz ərazi bütövlüyünü bərpa edən yeganə ölkədir".

A.Qut vurğulayıb ki, il yarım bundan əvvəl o, təmas xəttində olub və atəşkəs rejiminin zəifliyini və amanabəndliyini real şəkildə hiss edib. O deyib: "Müasir qüdrətli və müstəqil Azərbaycan artıq XX əsrin 90-cı illərinin sonundakı ölkə deyil. Hamı gözəl başa düşür ki, yoxsul Ermənistan üçüncü ölkənin köməyi olmadan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbir kasası isə çoxdan dolmuşdu".

İsrailli ekspertin fikrincə, Ermənistan rəhbərliyində nəhayət başa düşməli idilər ki, Azərbaycanla ultimatum, təhqir və şantaj dilində danışmaq olmaz və bu, mümkün deyil.

Qutun fikrincə, Zəfər paradının keçirilməsi nümayiş etdirdi ki, bu, şəxsən Azərbaycan Prezidentinin, rəşadətli Azərbaycan əsgərinin və zabitinin, bütün Azərbaycan xalqının hərbi, siyasi, mənəvi və texnoloji qələbəsidir. Ekspert vurğulayıb: "Azərbaycan dövləti 30 il erməni işğalı altında olan ərazilərini azad edərək qalib gəldi və Cənubi Qafqaz regionunda özünün artan geosiyasi, hərbi-texniki, texnoloji və diplomatik qüdrətini bütün dünyaya sübut etdi. Paradda Azərbaycan Silahlı Qüvvələrinin sərəncamında olan və bu yaxınlardakı müharibədə fəal şəkildə istifadə edilən silah və hərbi texnikanın əsas nümunələri göstərildi. Azərbaycan Ordusunun yekun uğurunda böyük rol oynayan artilleriya və tank əleyhinə raket komplekslərinin patrulunu çəkən İsrail istehsalı müxtəlif pilotsuz uçuş aparatları paradda əlbəttə ki, xüsusi diqqət mərkəzində idi".

Azərbaycanın uğurlu çoxvektorlu siyasəti sayəsində İsrail Dövləti və onunla qarşılıqlı münasibətlər rəsmi Bakının daxili siyasi konsepsiyasında xüsusi yer tutub və hazırda da belədir.

Arye Qut vurğulayıb: "Birincisi, İsrail-Azərbaycan münasibətləri strateji və hərbi-texniki xarakter daşıyır, ən yüksək hökumətlərarası və dövlətlərarası səviyyədə dəstəklənir. Bu gün bu strateji tərəfdaşlıq iqtisadiyyatın müxtəlif sektorlarında, o cümlədən kənd təsərrüfatı, yüksək texnologiyalar, səhiyyə və hərbi-texniki tərəfdaşlıq sahələrində həyata keçirilir. Vurğulamaq yerinə düşər ki, İsrail dünya bazarında Azərbaycan neftinin əsas strateji alıcılarından biridir.

Əfsuslar olsun ki, Ermənistan məhz Azərbaycanın Cənubi Qafqazda İsrailin strateji tərəfdaşı olması və Azərbaycanın İsraillə hərbi-strateji tərəfdaşlıqdan postsovet məkanında heç bir başqa ölkənin əldə edə bilmədiyi hər növ texnoloji üstünlüklər qazanması faktını qəbul edə bilmir. Paradın mexanikləşdirilmiş dəstəsinin ön sırasında İsrail istehsalı olan "SandCat-Stormer" zirehli maşınları üzərində quraşdırılmış 12,7 millimetrlik "NSV" pulemyotları, tank əleyhinə idarə edilən "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanları, çoxsaylı pilotsuz uçuş aparatları ("Orbiter-1KM", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar-BP", "Heron", "Hermes-450", "Hermes-900" və "Harop") və patrul sursatının nümayiş etdirilməsi faktı - bizim tərəfdaşlığımıza qibtə edənlərə real və düzgün cavabdır. Ermənilər həsəd apara, təxribatçı əməllər törədə, cəfəng xəbərlər yaya bilərlər, lakin bu gün artıq tarixi faktdır ki, İsrailin müdafiə sənayesi şirkətləri Azərbaycan hərbi sənaye quruculuğunda fəal iştirak ediblər və bu, davam edir. İsrail özünün Cənubi Qafqazdakı mühüm geosiyasi və geostrateji tərəfdaşının ədalətli qələbəsinə ürəkdən şaddır".

Qutun fikrincə, Ermənistan bu müharibədə tam geosiyasi və hərbi fiaskoya məruz qalıb. O deyib: "44 gün ərzində "şanlı erməni ordusu"nun imici məhv edildi və bu işğalçı ordu darmadağın olundu. Azərbaycanın Ermənistan üzərindəki hərbi üstünlüyü ani baş verməyib. Son 17 il ərzində Azərbaycan rəhbərliyi ölkənin iqtisadi potensialını möhkəmlədir, güclü və müasir ordunun formalaşması üçün şərait yaradırdı ki, bu da hər bir ölkənin uğur və inkişafını müəyyən edən mühüm amillərdən biridir. Texnoloji cəhətdən güclü müasir ordu ölkənin müstəqilliyinin möhkəmlənməsində və inkişafında, həmçinin regionda mühüm geosiyasi aktora çevrilməsində əhəmiyyətli rola malikdir.

İsrailli ekspert sonda deyib: "Son illər Azərbaycanda logistikanın möhkəmlənməsi, texniki cəhətdən yenilənmə, ən müasir silahların alınması üzrə böyük işlər aparılıb və bu gün Azərbaycan Ordusu regionda ən güclü ordulardan biridir. Bakıda Zəfər paradı bunu bir daha sübut etdi. Tarixi ədalət, beynəlxalq hüquq, iqtisadi güc, hərbi qüdrət və vətənpərvərlik ruhu Azərbaycan tərəfindədir".

# Sevinc Fətəliyeva: "Xalqımız haqlı olaraq Minsk qrupunun fəaliyyətindən həmişə narazı olub"



"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupu üzərinə düşən vəzifəni yerinə yetirə bilmədi. Ötən 28 il müddətində Minsk qrupu ona verilmiş mandat əsasında münaqişənin həllinə nail olmadı". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, dekabrın 12-də Prezident İlham Əliyev həmsədrlərlə görüşündə reallıqları qarşı tərəfin diqqətinə çatdırdı. Belə ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin sonuncu dəfə Azərbaycana səfərindən ötən bir il ərzində bölgə və dünyadakı vəziyyət dəyişib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti dəyişdirib.

Millət vəkilinin sözlərinə görə, Minsk qrupu həmsədr ölkələrinin liderləri münaqişənin hərbi həlli olmadığını iddia etsə də, Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Hərbi variant yoxdur" deyənlər sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər. Ancaq status-kvo güc yolu ilə, Azərbaycan hökumətinin iradəsi, yürüdülən müdrik siyasət, Azərbaycan xalqının əzmi, həmrəyliyi, bütün qüvvələrin səfərbər olunması, Azərbaycan əsgərinin şücaəti sayəsində dəyişdirildi.

"Görüşdə Pezident İlham Əliyev bildirdi ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki, bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvü olsalar da, Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamənin icrası üçün heç nə etməyiblər. Beynəlxalq vasitəçi olan ölkələrin hər biri öz imkanlarından, potensialından istifadə edərək Ermənistanı işğal etdiyi əraziləri tərk etməsi üçün mesaj verə bilərdi, lakin belə mesaj verilməyib. Həmsədr dövlətlərin işğalçı Ermənistana ciddi təsir etmək imkanları var idi. Müəyyən sanksiyalar tətbiq olunsaydı, işğalçı qüvvələr geri çəkilməyə məcbur olardı. Amma bunu etməyiblər. Həmsədrlər vaxtaşırı bölgəyə səfər etməkdən, müəyyən ideyalarla çıxış etməkdən, bir birinin təkrarı olan bəyanatlar səsləndirçəkdən başqa heç bir iş görməyiblər. Ona görə də, Azərbaycan xalqı haqlı olaraq Minsk qrupunun fəaliyyətindən həmişə narazı olub. Artıq bu məsələlər geridə qalıb. Cənab Prezidentin qeyd etdiyi kimi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Biz gələcəyə baxırıq. İşğaldan azad olunmuş bölgələrdə quruculuq işlərinin həyata keçirilməsi və insanların öz yurdlarına qayıtması qarşıda duran əsas vəzifədir. Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə beynəlxalq müstəvidə də yerini və rolunu gücləndirdi"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Rauf Əliyev: Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub



*"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 dekabr 2020-ci il tarixdə ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri ilə onların müraciətinə əsasən qəbul etmişdir. Cənab Prezident keçirilən görüşdə bu qrupun fəaliyyətindən danışarkən bu qrupun fəaliyyətini ciddi surətdə tənqid etmişdir. Məlumdur ki Minsk qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədi ilə yaranmışdı. Ancaq Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. 10 il əvvəl Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri birgə bəyanname ilə çıxış edərək status-kvonun qəbuledilməz olduğunu bildirmişdilər. Azərbaycan bu bəyannaməni dəstəkləsə də, müəyyən vaxtdan sonra həmsədr ölkələrin liderləri status-kvonun onlar üçün qəbul edilən olması haqda mesajlar vermişlər". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.*

*Deputat bildirib ki, münaqişənin həlli üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi: "Sual olunur BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində bu münaqişə niyə həll olunmurdu. Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının dami üzvü olsalar da, Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamənin icrası üçün heç nə etməyiblər. Beynəlxalq vasitəçi olan ölkələrin hər biri öz imkanlarından, potensiallarından istifadə edərək Ermənistanı işğal etdiyi əraziləri tərk etməsi üçün mesaj verə bilərdi, lakin belə mesaj verilməyib. Ermənistana ciddi sanksiyalar tətbiq olsaydı, işğalçı öz qüvvələrini geri çəkərdi. Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Münaqişənin dondurulmuş kimi qalması beynəlxalq vasitəçiləri qane edib. Minsk qrupunun gələcək mandatı şübhəlidir və Azərbaycanla razılaşdırılmalıdır. Cənab Prezident İlham Əliyev görüşdə qeyd etmişdir: "Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim qoy gəlsinlər, etiraz etmirəm". Cənab Prezident bununla nüfuzlu beynəlxalq müşahidəçilərə bildirdi ki, artıq onların vasitəçiliyinə ehtiyac qalmayıb. Artıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll edilmişdir. Status-kvo güc yolu ilə, Azərbaycan dövlətinin iradəsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirilən və həyata keçirilən balanslaşdırılmış, müdrik siyasət, Azərbaycan xalqının əzmi, həmrəyliyi, bütün qüvvələrin səfərbər olunması, Azərbaycan əsgərinin şücaəti sayəsində dəyişdirilmişdir. Cənab Prezident İlham Əliyev qeyd etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub".*

# Vaksinin qoruyuculuq müddəti nə qədərdir? - TƏBİB açıqladı

Koronavirusa qarşı vaksinin qoruyuculuq müddəti ilə bağlı hazırda dəqiq bir söz demək çətindir. Ancaq ən az bir il qoruyuculuq müddətinin olduğu deyilir. SİA-nın məlumatına görə, bunu TƏBİB-in İdarə heyətinin sədri Ramin Bayramlı dünən keçirilən brinfinqdə deyib.



R.Bayramlı bildirib ki, bununla bağlı vəziyyəti zaman göstərəcək: "Ən az bir il qoruyuculuğu barədə fikirlər var. Bəlkə bu müddət uzun oldu, bəlkə ildə bir fədə vaksinasiyaya ehtiyac olacaq, bəlkə vaksinin təsiri ömürlük olacaq. Bütün bunları zaman göstərəcək".

# Hulusi Akar: NATO-ya üzv olan bir ölkəyə sanksiya tətbiq etmək müttəfiqlik ruhuna zərər verəcək



NATO-ya üzv olan bir ölkəyə sanksiya tətbiq etmək müttəfiqlik ruhuna zərər verməklə yanaşı, etibarı kökündən sarsıdacağı da aydındır. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin milli müdafiə naziri Hulusi Akar ABŞ-ın Türkiyəyə qarşı sanksiyalar tətbiq etməsi ilə bağlı açıqlamasında bildirib.

İki ölkə arasındakı mövcud hərbi, siyasi münasibətlərə uyğun olmayan bu qərarı qınadıqlarını vurğulayan nazir deyib: "Bu sanksiya qərarı ölkələrimiz arasındakı ittifaqın bütün dəyərlərini sarsıtdı. Ciddi hava hücumu təhdidi altında olan ölkəmizin və 83 milyon vətəndaşımızın təhlükəsizliyi üçün bütün lazımi tədbirlər görülür və görüləcək. NATO-ya üzv olan bir ölkəyə sanksiya tətbiq etmək müttəfiqlik ruhuna zərər verməklə yanaşı, etibarı kökündən sarsıdacağı da aydındır. Ölkəmizin, millətimizin müdafiəsini və təhlükəsizliyini təmin etmək səyləri əzm və qətiyyətlə davam edəcək".

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dekabrın 15-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, parlamentin sədri Sahibə Qafarova iclası açaraq gündəliyə 13 məsələnin daxil edildiyini bildirib.***

Gündəlik təsdiqləndikdən sonra Milli Məclisin sədri diqqətə çatdırıb ki, müzakirəyə çıxarılan ilk iki qanun layihəsi Azərbaycan Prezidentinin bir məktubu ilə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Gündəliyin birinci məsələsi "Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında" qanun layihəsidir. Gündəliyin ikinci məsələsi bu dəyişikliklə əlaqədar olaraq "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" qanun layihəsidir. Birinci layihə ad dəyişikliyi ilə bağlıdır, ikinci layihə isə uyğunlaşdırma xarakteri daşıyır. Hər iki qanun layihəsini bir oxunuşda qəbul etməliyik.

Sonra regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qanun layihələri barədə məlumat verib. Bildirilib ki, Şamaxı rayonunun inzibati ərazisindəki Saqiyan kəndinin adı Azərbaycan etnosu, milli-irsi dəyərləri, xalqımızın tarixi, coğrafiyası, yerli əhalinin məişəti ilə heç bir bağlılıq daşımır. Məsələ ilə bağlı Toponimiya Komissiyası ilə müvafiq məsləhətləşmələr aparılıb, yerli sakinlərin münasibəti öyrənilib. Coğrafi ərazi baxımından güney ərazidə yerləşən kəndin Günəşli adlandırılması məqsədəuyğundur.

Layihəyə əsasən, Şamaxı rayonunun Saqiyan kənd inzibati ərazi dairəsi tərkibindəki Saqiyan kəndi Günəşli kəndi adlandırılır, Saqiyan kənd inzibati ərazi dairəsi Günəşli kənd inzibati ərazi dairəsi hesab edilir.

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" qanun layihəsi ilə bağlı Siyavuş Novruzov bildirib ki, bələdiyyələrin siyahısının Şamaxı rayonu bölməsində Saqiyan bələdiyyəsinin adı Günəşli bələdiyyəsi ilə, Saqiyan kəndinin adı Günəşli kəndi ilə əvəz olunur.

Müzakirələr zamanı deputatlar Tahir Kərimli və Aydın Mirzəzadə məsələ barədə öz fikirlərini açıqlayıblar. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya Komissiyasının sədri İsa Həbibbəyli öz çıxışında Saqiyan sözünün mənşəyi barədə məlumat verib, kəndin Günəşli adlandırılmasında onun yerləşdiyi coğrafi ərazinin xüsusiyyətlərinin nəzərə alındığını deyib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin sədri deyib ki, gündəliyin növbəti 10 məsələsi ikinci oxunuşda olan qanun layihələridir.

Milli Məclis sədrinin birinci müavini, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri




Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə bildirib ki, məsələ ilə bağlı deputatlar tərəfindən hər hansı irad və təklif daxil olmayıb.

Layihəyə əsasən, məcəllənin 950.1-ci maddəsində nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizindən çoxunun Azərbaycan Respublikasına və ya bələdiyyələrə mənsub olduğu bank tərəfindən fiziki şəxslərin əmanətlərinin qaytarılması üzrə subsidiar məsuliyyət haqqında müddəanın çıxarılması təklif olunur. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlikdəki növbəti iki məsələni - "Əmanətlərin tam sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "Əmanətlərin sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda təqdim edib. Komitə sədri birinci oxunuş zamanı deputatların səsləndirdiyi fikirlərə münasibət bildirib.

"Əmanətlərin tam sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihəyə əsasən, 4 il 9 ay ərzində qüvvədə olan bu qanunun müddəti iki dəfə uzadılaraq cari ilin dekabrın 4-də başa çatıb. Bununla əlaqədar olaraq təqdim olunmuş layihədə qanunun qüvvədə olma müddətinin 2021-ci ilin 5 aprel tarixinədək uzadılması təklif olunur.

"Əmanətlərin sığortalanması haqqında" Qanuna təklif olunan dəyişikliyə görə, fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləğinin 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırılması nəzərdə tutulub. Sənəddə, eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitlərinin sığortalanması (kompensasiya məbləği 20 min manat müəyyən edilməklə) təklif olunur.

Qanun layihəsinə görə, notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanması da nəzərdə tutulub.

Komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Fəzail Ağamalı, Vahid Əhmədov, Mahir Abbaszadə, Qüdrət Həsənquliyev, Rüfət Quliyev qanun layihələri barədə öz fikirlərini bildirdikdən sonra hər iki sənəd ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər barədə (ikinci oxunuş) əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib.

Layihəyə əsasən, Əmək Məcəlləsinin 105-ci maddəsində nəzərdə tutulan bayram günlərinin siyahısına 8 noyabr - Zəfər günü də əlavə edilir və qeyri-iş günü olan bayram günlərinə aid edilir. Digər bir dəyişikliklə Məcəlləyə yeni - 106.1-ci maddə əlavə edilir. Əlavədə deyilir ki, hər il sentyabrın 27-si Azərbaycan Respublikasının işğal altındakı torpaqlarının azad edilməsi uğrunda həlak olan şəhidlərin xatirəsini yad etmə günü - Azərbaycan Respublikasında Anım günüdür. Həmin gün iş günü hesab edilir.

Qeyd edilib ki, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər ölkə başçısının 2 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasında Anım gününün təsis edilməsi haqqında" və 3 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasında Zəfər gününün təsis edilməsi haqqında" sərəncamlarından irəli gəlir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

"Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Bədən tərbiyəsi və idman haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) sənədləri elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev diqqətə çatdırıb. Qeyd edilib ki, hər iki qanun layihəsinin birinci oxunuşu zamanı heç bir əlavə və təklif edilməyib.

Birinci layihəyə edilən dəyişikliklər texniki xarakter daşıyır, qanundakı terminlərin dəqiqləşdirilməsi, təhsil haqqında dövlət sənədlərinin verilməsi sahəsində elektron informasiya sistemlərinin tətbiqini nəzərdə tutur.

"Bədən tərbiyəsi və idman haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihə qanunvericiliyin təkmilləşdirilməsi, peşə təhsili və ümumi təhsil haqqında dövlət sənədlərinin müvafiq qaydada ilə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" üzərindən formalaşdırılması və verilməsi məqsədilə hazırlanıb.

Deputat Rauf Əliyev öz fikirlərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda ikinci oxunuşda qəbul edilib.

Gömrük Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini ikinci oxunuşda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov təqdim edib. Bildirilib ki, hər iki məcəlləyə ediləcək dəyişiklik iqtisadi fəallığın və şəffaflığın təmin olunmasına yönəlib. Birinci oxunuşdan sonra deputatlardan heç bir irad və təklif daxil olmayıb.

Gömrük Məcəlləsində və Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər gömrük orqanları tərəfindən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olan zaman yol vergisinin sərhəddə alınması ilə yanaşı, gömrük rəsmiləşdirilməsi yerlərində də alınmaqla, xarici ticarət iştirakçıları tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən sürətli keçidini tənzimləməklə, mal dövriyyəsinin sürətləndirilməsinin və vaxt itkisinin minimuma endirilməsinin nizama salınmasında mühüm rol oynayacaq.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda ikinci oxunuşda qəbul edilib.

Gündəlikdəki digər iki məsələ - Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə ikinci oxunuşda Milli Məclis sədrinin birinci müavini, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, məqsəd bundan sonrakı dövrdə də parlamentin işinin videokonfrans formatında aparılmasının hüquqi bazasının yaradılmasıdır.

Nəzərdə tutulan dəyişikliklər karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq, Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi məsələlərini özündə əks etdirir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Bildirilib ki, qanun layihəsi kommersiya təşkilatları tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtibi ilə bağlı müddəaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Layihədə orta sahibkarlıq subyektlərində mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi qaydasının iri sahibkarlıq subyektləri ilə eyni hüquqi rejimə gətirilməsi, həmçinin kiçik sahibkarlıq subyektləri tərəfindən mühasibat uçotunun Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən aparılması nəzərdə tutulur.

Məsələ ilə bağlı deputat Razi Nurullayev çıxış edərək öz fikirlərini bildirib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib. Bununla Milli Məclisin iclası başa çatıb.

# Ermənilər Dilqəmlə Şahbazın geri qaytarılmasından niyə narahat oldular?

### Bütün cinayətkar əməlləri üzə çıxır, hələ qarşıda məhkəmələr də olacaq!



Əldə edilmiş razılığa əsasən, hamının-hamıya prinsipi əsasında əsir və girovların dəyişdirilməsi prosedurunun ardınca ermənilərin ictimai-siyasi rəyi yenidən hay-həşir salmağa başlayaraq bu dəfə Dilqəm Əsgərovla Şahbaz Quliyevin nəyə görə geri qaytarılmalarını müzakirə obyektinə çıxarmaqla, bu dəfə də baş nazir Nikol Paşinyana qarşı ittihamlar səsləndiriblər. Torpaqlarımızın işğal altında qaldığı vaxtlarda öz doğma yurd-yuvalarının həsrətinə dözməyərək, gizli yollarla Kəlbəcərə gedən Dilqəm və Şahbazın tutularaq üzərlərinə "deversant" damğasını vurub, heç bir hüquqa, humanizmə sığmayan qanunsuz bir "dövlətin" adından mühakimə edilmələri Azərbaycan xalqında hiddət oyatmışdı. Artıq o torpaqlarımız düşmən işğalından azad olunub və söz yox ki, digər əsirlərimizlə yanaşı, bu girovlarımızın da azadlığa çıxacaqlarını hər kəs səbirsizliklə gözləyirdi.

### Erməni müxalifətçiləri indi də başlarını tutub bar-bar bağırırlar ki, Dilqəm və Şahbaz Azərbaycana təhvil verilməməli idi

Əslində, qarşıda nəinki torpaqlarımızı işğalda saxlayaraq oraları viranəyə çevirənlərdən həmin əməllərinə görə təzminat tələb olunacaq, eləcə də girovlarımıza vurulan fiziki, mənəvi zərərlərə görə haqlar tələb ediləcək və bu birmənalıdır. Lakin əsas reallıq budur ki, məhz Prezident İlham Əliyevin qətiyyəti, dönməz iradəsi sayəsində Vətən müharibəsində qazandığımız zəfər sevinclərimizə bu cür sevinclər də əlavə olunmaqdadır.

Beləliklə, erməni müxalifətçiləri indi də başlarını tutub bar-bar bağırırlar ki, Dilqəm və Şahbaz Azərbaycana təhvil verilməməli idi. Məsələn, anti-Paşinyan yürüşündə iştirak edən Ermənistanın sabiq ədliyyə naziri Arpine Ovannisyan bildirib ki, Nikol Paşinyan erməni xalqının arxasından kapitulyasiya sənədinə imza atıb və həmin stil indi də davam edir.

"Bir az əvvəl biz məlumat əldə etdik ki, "hərbi cinayətkarlar" (daxili dırnaqlar bizimdir-R.N.) iki "azərbaycanlı diversant" Azərbaycana təhvil verilib. Yəni o (Paşinyan) hərbi əsiri hərbi əsirə dəyişmir, o "hərbi cinayətkarları" təhvil verib. O, onları Azərbaycana gizli şəkildə ötürüb. O, həqiqətdə Ermənistan respublikasının maraqlarını lazımi şəkildə təmin etmir", deyə Ovannisyan hələ də köhnə və artıq mövcud olmayan "arsax" xəyallarında qalmaqda davam edib.

### Tanınmayan, məhv olan və bundan sonra bir daha olmayacaq "ikinci erməni dövləti" - "dqr"in nə "məhkəməsi", nə də digər "strukturlarının" əhəmiyyəti olmayıb və yoxdur!

Digər erməni siyasət adamı, Cənubi Qafqaz geosiyasəti üzrə ekspert Anjela Elibeqova isə özünün feysbuk səhifəsində yazıb: "Bütün hərbi əsirlərimizin geri qaytarılması başa çatmamış iki azərbaycanlı "diversantları" necə təhvil vermək olar?"

Göründüyü kimi, xəstə erməni təfəkkürü hələ bundan sonra uzun illər bu xalqı bəlkə də özlərinin də xəbərləri olmadan məhv etməyə davam edəcək, lakin onlar - xəstə təfəkkürlü ermənilər hələ də anlamırlar ki, Qarabağ Azərbaycandır və bunu bütün dünya təsdiq edir. Bu baxımdan, tanınmayan, məhv olan və bundan sonra bir daha olmayacaq "ikinci erməni dövləti" - "dqr"in nə "məhkəməsi", nə də digər "strukturlarının" əhəmiyyəti olmayıb və yoxdur! Dilqəm və Şahbaz öz doğma torpaqlarına, ellərinə səfər ediblər, özü də işğal altında olarkən. O torpaqların işğala məruz qalması faktını isə BMT-dən tutmuş bütün beynəlxalq təşkilatlar, dövlətlər tanıyıblar. Bu zaman erməni siyasətçilərinin həmin məsələdə vargəl etmələri yersiz və məntiqsizdir.

### Dolayı yollarla Azərbaycanı ittiham etməyə cürət göstərməsinlər!

Başqa tərəfdən, əgər onlar müharibəni uduzublarsa, işğal etdikləri ərazilərdən çıxıblarsa, ölkələrinin dövlətçilik əsasları laxlayıbsa, Ermənistan məhv olmaq dərəcəsinə çatıbsa, həmin ittihamlarını yalnız istefasını tələb etdikləri Nikol Paşinyandan soruşmalıdırlar. Daha Dilqəm və Şahbaz kimi illər boyu əzablı girovluqda qalanların vətənlərinə geri qaytarılması məsələsini də əllərində bayraq edib, dolayı yollarla Azərbaycanı ittiham etməyə cürət göstərməsinlər!

O da əbəs deyil ki, yazının əvvəlində Dilqəm və Şahbazın geri qaytarılması prosesində bilavasitə Prezident İlham Əliyevin qətiyyətinin dayandığını qeyd etmədik. Çünki bizlər bilirdik ki, Ramil Səfərovu erməni xislətindən xilas edən dövlət başçımız Dilqəm və Şahbazı da bu xislətdən qurtaracaq. Əslində, bunu elə ermənilərin özləri də etiraf edirlər.

### Qeyd olunanlar onsuz da çökməkdə, məhv olmaqda olan Ermənistana yaxşı heç nə vəd etmir

Misal üçün, Anjela Elibeqova sosial şəbəkədəki postunda yazmağa davam edir və yazır ki, "Azərbaycan Prezidenti İlham Əliyev 6 il boyunca hər şey etdi ki, onları geri qayrarsın və Ramil Səfərov kimi qəhrəmanlaşdırsın", yazan Elibeqova narahatlığını bildirib və iddia irəli sürüb ki, sonuncu erməni əsirlərinin geri qaytarılmasına qədər onar Ermənistanda qalmalıymışlar: "Məhz onlara görə o, əsirlərin "hmının-hamıya" prinsipi ilə dəyişdirilməsinə razı oldu... Axı əvvəldən onları necə təhvil vermək olardı?".

Erməni politoloqu Qrant Melik-Şahnazaryan anti-Paşinyan yürüşündə iddia edib ki, sən demə onların hərbi əsirliyə heç bir aidiyyatları yoxdur (?!)

"Biz bu gün elə bir situasiyaya yuvarlanmışıq ki, Ermənistan respublikasının ləyaqətini xəritədə Əliyevlə Ərdoğan birlikdə həll edirlər", deyə Şahnazaryan bildirib.

Bütün bu narahatlıqların isə əsas səbəbi budur ki, artıq ermənilər vaxtilə törətdikləri bütün cinayətlərinin açığa çıxacağından ehtiyat edirlər. Onların işğalçılıq, terrorçuluq və anti-humanizm davranışları, eləcə də digər qeyri-insani rəftarları yaxın zamanlarda beynəlxalq insan haqları məhkəməsində mühakiməyə səbəb olacaq. Qeyd olunanlar isə onsuz da çökməkdə, məhv olmaqda olan Ermənistana yaxşı heç nə vəd etmir.

*Rövşən NURƏDDİNOĞLU*

# "Sanksiyalar Türkiyənin daha da güclənməsinə səbəb olacaq"



"Rusiyadan alınmış S-400 zenit-raket kompleksləri ilə bağlı ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiya ədalətsiz, qərəzli qərar olmaqla yanaşı, eyni zamanda ikili standartlardan və qanunsuzluqdan xəbər verir. Belə olan halda rəsmi Ankaranın birtərəfli sanksiyaları qınaması və rədd etməsi, bu sanksiyaya qarşı lazımi addımları atacağını bəyan etməsi son dərəcə haqlı mövqedir". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, əvvəla, unudulmamalıdır ki, Türkiyə hava hücumundan müdafiə sistemləri ilə bağlı bir neçə dəfə NATO və ABŞ-a müraciət etsə də buna müsbət cavab verilməməsi nəticəsində bu sistemlər Türkiyəyə satılmadı: "Əvəzinə hava hücumu qurğuları sisteminin qurulması NATO çərçivəsində Hollandiyaya həvalə olundu ki, Hollandiya bu məsələ ilə bağlı öhdəliklərini yerinə yetirmədi. Bu vəziyyətdə haqlı olaraq Türkiyə müstəqil bir dövlət kimi milli maraqlarını və təhlükəsizlik məsələlərini də əsas götürərək Rusiyadan müasir sözügedən sistemi aldı. Türkiyə NATO-nun iştirakı ilə texniki işçi qrupunun yaradılması təklifini irəli sürüb və dəfələrlə bu məsələni obyektiv və real əsasda, siyasi qərəzsiz yolla həll etməyi təklif edib. Bütün bunlara adekvat cavab verilərək Türkiyənin təşəbbüsünə hər hansı münasibət bildirilməyib. NATO-ya daxil olan Yunanıstan həmin sistemləri Rusiyadan aldığı halda ona qarşı nə ABŞ, nə də NATO rəhbərliyi tərəfindən hər hansı neqativ münasibət olmadı. Belə qərəzli mövqe altında ABŞ-ın sanksiyaları Türkiyəyə təsir etməyəcək, əksinə, onun daha da güclənməsinə səbəb olacaq".

Politoloq qeyd edib ki, ABŞ-ın yeni F-35 qırıcılarını Türkiyəyə satmaqdan imtina etməsi Türkiyə tərəfindən özünün yeni qırıcı təyyarələr istehsal etməsinə təkan verdi: "Eyni zamanda, ABŞ-dan müasir dronlar ala bilməyən Türkiyə dünyanı heyrətə gətirən "Bayraktar" dronlarını hazırladı və istehsala başladı. Bunlarla yanaşı, bu gün böyük iqtisadi və hərbi potensiala malik Türkiyə "Altay" tankları, helikopterlər və ən müasir standartlara uyğun silah-sursat istehsal edir. Tənəzzül və qeyri-müəyyənlik vəziyyətində olan Fransa prezidenti Makronun iflic kimi xarakterizə etdiyi NATO Türkiyənin nümunəsində ən böyük dayağını itirir. Bu hər şeydən öncə NATO-nun özünə ciddi zərbədir. Bütün bu sadalanan reallıqlar fonunda aydın olur ki, müəyyən qüvvələr Türkiyənin dünyada artan nüfuzu və rolundan ciddi narahatlıq keçirirlər".

Ş.Həsənova vurğulayıb ki, belə olan məqamda da Azərbaycanın mövqeyi açıq-aşkardır: "Azərbaycan və Türkiyə dost-qardaş ölkədir, ölkələrimiz bir-birini dəstəkləyir və hər zaman da bir-birinin yanında olacaqlar. Azərbaycan Prezidenti İlham Əliyev son dərəcə haqlı olaraq S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasına görə ABŞ tərəfindən Türkiyəyə qarşı tətbiq olunan birtərəfli sanksiyaları qəbuledilməz hesab edir. Çünki bu hal ədalətsizlikdən, ikili standartlardan və qanunsuzluqdan xəbər verir".

*Aysel Məmmədova*

# "Euractive": Avropa Komissiyası Xəzər qazının Aİ ölkələrinə gəlməsini alqışlayır



"Euractive" xəbər portalında "Komissiya Xəzər qazının Aİ ölkələrinə gəlməsini alqışlayır" adlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Avropa Komissiyasının Cənub Qaz Dəhlizinin son hissəsi olan Trans-Adriatik boru kəmərinin (TAP) istismarına başlanılmasını alqışladığı bildirilir.

Avropa Komissiyasının sözçüsü Tim Makfi bildirib ki, Avropa İttifaqının rəhbərliyi Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən və Xəzər dənizində hasil edilən təbii qazı Avropa istehlakçısına çatdıran TAP kəmərinin fəaliyyətə başlamasını alqışlayır. Onun sözlərinə görə, bu layihə seçimi və rəqabəti artıracaq, enerji təhlükəsizliyini inkişaf etdirəcək və xüsusilə də İtaliya, Yunanıstan və Bolqarıstan, həmçinin Avropanın Cənub-Şərq regionunda qaz tədarükünü şaxələndirəcək: "TAP - Avropa İttifaqının ümumi maraqlarını təmin edən layihədir və Cənub Qaz Dəhlizin vacib hissəsidir".

# Türkiyənin dörd partiyası ABŞ-ın ədalətsiz sanksiyası ilə əlaqədar etiraz bəyanatı yayıb



Türkiyə Böyük Millət Məclisində təmsil olunan Ədalət və İnkişaf Partiyası (AKP), Cümhuriyyət Xalq Partiyası (ÇHP), Milliyyətçi Hərəkat Partiyası (MHP) və İYİ Partiya ABŞ-ın Türkiyəyə qarşı ədalətsiz sanksiyası ilə əlaqədar etiraz bəyanatı yayıblar. Belə ki, dörd partiyanın qəbul etdiyi bəyanatda ABŞ tərəfinə bu yanlış və təhlükəli qərardan çəkinməyə çağırış edilir.

# Nazirlik: Koronavirusa qarşı vaksinasiya pulsuz olacaq




Azərbaycanda koronavirusa qarşı vaksinasiya pulsuz olacaq. Vaksinasiya strategiyası artıq hazırdır. SİA-nın məlumatına görə, bunu Operativ Qərargahın dünən keçirilən brifinqində Səhiyyə nazirinin müavini Viktor Qasımov deyib. Onun sözlərinə görə, ölkədə vaksinasiya pulsuz həyata keçiriləcək və artıq risk qrupları müəyyənləşib. İlk növbədə onların vaksinasiyası həyata keçiriləcək.

# Prezidentə yazırlar: "Bizim üçün Sizdən qüdrətli rəhbər, Prezident yoxdur!"

***Azərbaycan vətəndaşları, eləcə də xaricdə yaşayan soydaşlarımız rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

## "Cənab Prezident, Sizə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsini istəyirik"

Bakı şəhərindən Həbib Fətəliyev yazır: "Hörmətli Prezidentimiz, dünyada Sizin kimi müdrik lider, təmiz qəlbli Ali Baş Komandan görmədim. Bizim üçün Sizdən qüdrətli rəhbər, Prezident yoxdur. Buna görə də mən və ailə üzvlərim Sizə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsini və ömürlük Prezidentimiz olmağınızı istəyirik. Allah Sizi və ailənizi qorusun!".

## "Göstərdiyiniz qətiyyətə, apardığınız uzaqgörən siyasətə, düşmən üzərində qazandığınız Qələbəyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz"

Sabirabad rayonunun sakini Rövşən Məmmədov: "Müzəffər Ali Baş Komandan, 44 gün davam edən və böyük Qələbəmizlə nəticələnən Vətən müharibəsini yaşadıq. Qazandığımız Qələbəyə görə Sizə, əsgər və zabitlərimizə minnətdarlığımı bildirirəm. Sizin uzaqgörən fəaliyyətiniz, qətiyyətiniz, cəsarətiniz haqqında nəinki xalqımız, hətta aparıcı ölkələrin mediaları da yüksək fikirlər ifadə edirlər. Siz göstərdiyiniz qətiyyətə, apardığınız uzaqgörən siyasətə, düşmən üzərində qazandığınız Qələbəyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz. Tanrı Sizi qorusun! Tanrı Azərbaycanımızı qorusun!".

## "Xalqın Sizə və rəhbərlik etdiyiniz Orduya güvəni sonsuzdur"

Ağdam sakini Musa İsmayılov: "Müzəffər Ali Baş Komandan, bir qarabağlı olaraq Sizə dərin təşəkkürümü bildirirəm. Siz təkcə torpaqlarımızı yağı düşmən tapdağından təmizləmədiniz, həm də bizim vicdanımızı, şərəfimizi təmizlədiniz. Dünyasını dəyişmiş bütün qarabağlıların ruhunu şad etdiniz. Bütün dünyaya Azərbaycanın gücünü göstərdiniz. Cənab Prezident, tarixboyu baş verən bütün müharibələrdə ordudan yayınma halları baş vermişdir. Lakin Sizin komandanlıq etdiyiniz bu Vətən müharibəsində əksinə oldu, döyüşə getmək istəyən könüllülərin çoxluğu sübut etdi ki, xalqın Sizə və rəhbərlik etdiyiniz Orduya güvəni sonsuzdur. Otuz il işğal altında qalan torpaqlarımız verilən düzgün əmrlər, mükəmməl döyüş taktikası və uzaqgörən siyasətiniz nəticəsində azad edildi. Siz təkcə Ermənistanla mübarizə aparmadınız, onların havadarlarını da susdurmağı bacardınız. Siz 44 gün diplomatiya masasında da savaşdınız. Sizinlə qürur duyuram. Seçkilərdə Sizə səs verdiyim üçün xoşbəxtəm. Cənab Prezident, qarabağlılar adından son bir istəyimiz də var ki, Sizə "generalissimus" hərbi rütbəsi verilsin. Çünki Siz ən ali fəxri adlara, rütbələrə layiq şəxsiyyətsiniz. Ömrümüzün sonunadək Sizə borcluyuq. Allah Sizi xalqımızın başının üstündən əksik etməsin".



## "Sizin xalqımız üçün etdiklərinizin qarşısında söz tapıb demək çox çətindir"

Kürdəmirdən Xəlil Məmmədov: "Qəhrəman Prezidentim, Siz televiziya vasitəsilə xalqımızı, eləcə də biz məcburi köçkünləri torpaqlarımızın işğaldan azad olunması münasibətilə təbrik etdikdə təəssüf ki, bizim də həmin an Sizi təbrik edib, gözaydınlığı vermək imkanımız olmur. Sizin xalqımız üçün etdiklərinizin qarşısında söz tapıb demək çox çətindir. Əgər nə zamansa Sizinlə qarşılaşsam, düşmənə qarşı əks-hücum əməliyyatı əmri verdiyiniz üçün əllərinizdən öpəcəyəm. Çünki Siz bizim kimi məcburi köçkünləri el töhmətindən qurtardınız. Cənab Prezident, Siz müraciətlərinizin birində dediniz ki, "Şuşasız işimiz yarımçıq qalar". İstərdim ki, Şuşanın girişində Sizin qızıldan heykəliniz ucaldılsın və gəlib-gedənlər Sizin qəhrəman olduğunuzu görsünlər. Düşünürəm ki, bu heykəl Sizin zəhmətinizin heç olmasa qismən qarşılığı olar. Sizi bağrıma basıb öpürəm, Sizə uzun ömür, cansağlığı və daimi Prezidentimiz olmağınızı arzulayıram".

## "Biz əminik ki, Azərbaycan xalqına məxsus bir qarış, bir zərrə torpaq da bundan sonra heç vaxt yadların təcavüzünə məruz qalmayacaq"

Bakı şəhər sakini Aytac Əzimova: "Hörmətli cənab Prezident, Azərbaycan xalqına misli görünməyən tarixi və şərəfli Qələbə yaşatdığınız üçün vətəndaş cəmiyyətinin bir üzvü kimi mənim də sevincimin həddi-hüdudu yoxdur. Apardığınız məqsədyönlü siyasət nəticəsində güclənən Azərbaycan Ordusu tərəfindən mənfur düşmən üzərində qazanılan şanlı Qələbəni dəstəkləyən qardaş Türkiyə ilə yanaşı, bu Zəfəri həzm edə bilməyən, gözü götürməyən bəzi qüvvələr də mövcuddur. Otuz ilə yaxın müddətdə Azərbaycanın dilbər guşəsi Qarabağın işğaldan qeyd-şərtsiz azad olunması məsələsində dünya birliyi Azərbaycanı dəstəkləsə də, bu müddətdə üzərinə düşən vəzifəni yerinə yetirmək istəməyən bəzi qüvvələrin indiki şanlı Qələbəmizə məyusluğu gözlənilən idi.

Cənab Ali Baş Komandan, Siz dünya diplomatiya tarixinə yazılan, açıq və milli maraqlara əsaslanan siyasətinizlə Qarabağın Azərbaycan torpağı olmasını və Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı hər hansı qərarın qəbulunun mümkünsüzlüyünü faktlarla sübut etdiniz. Ən müasir hərbi texnologiyaların tətbiq olunduğu və hibridliyinə görə fərqlənən Vətən müharibəmizdə uğur qazanan müzəffər Ordumuzun intellektual texnologiyalarla təchizatı hərbi sahədə apardığınız islahatların nəticəsidir. Məhz Sizin siyasətinizdən ruhlanan minlərlə Azərbaycan gənci könüllü olaraq orduya yazıldı. Sizin rəhbərliyinizlə müzəffər Ordumuz 44 gün ərzində 30 ilin həsrətinə son qoyaraq düşməni diz çökdürdü. Bununla da Azərbaycan öz gücünü bütün dünyaya göstərdi, tarixi ədalət bərpa olundu. Biz xoşbəxtik, çünki varlığımız ümidlə doludur. Biz əminik ki, Azərbaycan xalqına məxsus bir qarış, bir zərrə torpaq da bundan sonra heç vaxt yadların təcavüzünə məruz qalmayacaq, Vətənimizə göz dikən olarsa, amansızlıqla susdurulacaq və məhv ediləcək. Bu tarixi Qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri qədirbilən xalqımız tərəfindən həmişə yüksək dəyərləndiriləcək, tarixdə əbədi qalacaq və heç vaxt unudulmayacaq.

Qazanılan şanlı Qələbə münasibətilə bir daha Sizi təbrik edir, xalqımıza bəxş etdiyiniz sevincli günlərə görə Zati-alinizə dərin təşəkkürümü bildirirəm. Allah Sizi və Azərbaycanımızı qorusun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

## "Bu Qələbə Sizin güclü iradənizin sayəsində əldə edildi"

Yevlaxdan Anar Qarayev yazır: "Cənab Prezident, Müzəffər Ali Baş Komandan, mən Sizə Yevlax gəncləri adından müraciət edirəm. 44 gün davam edən böyük Vətən müharibəsi Sizin rəhbərliyiniz ilə rəşadətli Ordumuzun Qələbəsi ilə başa çatdı. Bu qələbə Sizin güclü iradənizin sayəsində əldə edildi. Sizə olunan müxtəlif basqılara baxmayaraq güclü siyasi iradə nümayiş etdirdiniz və bu iradə bizlərə ümummilli lider Heydər Əliyevi xatırlatdı. Ümummilli liderimiz Heydər Əliyev sizə çox inandığını və Azərbaycanı uğurlu gələcəyə aparacağınızı demişdi. 2003-2020-ci illər ərzində Siz Ümummilli Liderimizin dediklərinin həqiqətən də doğru olduğunu sübut etdiniz və bizim buna heç şübhəmiz yox idi. Vətən müharibəsində 2783 şəhidimiz oldu. Bütün şəhidlərimizin ruhları qarşısında baş əyirik. Əziz Prezidentimiz, həmişə biz gənclər Sizi dəstəkləyəcəyik. Siz Azərbaycan xalqını işıqlı gələcəyə aparırsınız. Biz Sizi ömürlük prezidentimiz görürük. Siz adınızı tarixə qızıl hərflərlə yazdınız. Sizə uzun ömür, cansağlığı arzu edirik. Siz ümummilli liderimiz Heydər Əliyevin yolunu davam etdirdiyiniz kimi, Sizin oğlunuz Heydər Əliyevin də sizin yolunuzu davam etdirəcəyinə şübhə etmirik. Heydər Əliyev irsinin əbədi yaşayacağına əminik. Bu irs Azərbaycan xalqını xilas etdi və əbədi yaşamağa layiqdir".

## "Məhz Sizin uzaqgörən və müdrik siyasətiniz, Ali Baş Komandan kimi mahir sərkərdəliyiniz sayəsində xalqımız bu Zəfəri yaşadı"

Tbilisi şəhərindən Rafiq Hümbətov yazır: "Hörmətli cənab Prezident, əvvəla, Sizi, müzəffər Azərbaycan Ordusunu və xalqımızı şanlı Qələbə münasibətilə təbrik edirik. Sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Sizin müdrik rəhbərliyiniz, əsgər və zabitlərimizin misilsiz şücaətləri sayəsində ədalətin təntənəsi və Qarabağın işğaldan azad olunması bütün dünya azərbaycanlıları kimi, Gürcüstan azərbaycanlılarının da hədsiz sevincinə səbəb olub. Əlbəttə, biz Gürcüstan sakinləriyik və yaşadığımız ölkənin sadiq vətəndaşlarıyıq. Bununla belə, biz azərbaycanlıyıq, damarlarımızda azərbaycanlı-türk qanı axır, doğma vətənimiz Gürcüstan kimi, milli vətənimiz Azərbaycanın da dərdi dərdimiz, sevinci sevincimizdir. Təbii ki, müharibənin getdiyi 44 gün ərzində Gürcüstanda yaşayan soydaşlarımız da birləşərək bir can oldular, Azərbaycanımızın haqlı mübarizəsində həmrəyliklərini göstərdilər, çoxminli dəstək mitinqləri keçirdilər, yerli icmamız 60-dək qeyri-hökumət təşkilatı ilə birgə bəyanat imzalayaraq, Gürcüstan rəhbərliyinə, Gürcüstanda yerləşən diplomatik nümayəndəliklərə, beynəlxalq təşkilatların Tbilisidəki təmsilçiliklərinə təqdim etdi, ayrı-ayrı şəxslər və təşkilatlar Qərbi Avropa dövlətlərinin parlamentlərinə müxtəlif məzmunlu yüzlərlə məktub ünvanladılar. Bərdə, Tərtər və Gəncənin bombalanmasına, dinc sakinlərin həlak olmasına etirazlarını bildirdilər, aksiyalar keçirdilər. Bu 44 gün ərzində həm də televizor ekranları qarşısında sonsuz həyəcanla Sizin müjdəli xəbərinizi gözlədik, işğaldan azad edilən hər məntəqənin adını eşitdikcə ürəkləndik, qürur duyduq, təsirli anlar yaşadıq. Nəhayət, ən möhtəşəm müjdəni - qədim Şuşanın işğaldan azad olunması xəbərini noyabrın 8-də Şəhidlər xiyabanından bəyan etdiniz. İki gün sonra isə Ermənistanın kapitulyasiya etməsi, Azərbaycanımızın düşmən üzərində parlaq Qələbə çalması xəbərini də ilk olaraq Sizdən eşitdik. Otuz ilə yaxın gözlənilən bu Qələbənin şərəfinə Gürcüstanın ayrı-ayrı bölgələrində qurbanlar kəsildi, ziyafətlər, tədbirlər təşkil olundu, şəhidlərimizin əziz xatirəsinə ehsanlar verildi. Bu ildırımsürətli müharibədə əslən Gürcüstandan olan yüzlərlə əsgərimiz də döyüşüb. Son məlumatlara görə, onlardan 16 nəfər şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin.

Hörmətli cənab Prezident, bu parlaq Qə-

# Prezidentə yazırlar: “Bizim üçün Sizdən qüdrətli rəhbər, Prezident yoxdur!”



ləbəyə, qaytarılan milli qürurumuza, özünəinamımıza, 30 ilə yaxın yağı tapdağında inildəyən əzəli və əbədi Azərbaycan torpaqlarında üçrəngli müqəddəs bayrağımızı ucaltdığınıza görə Sizə və qəhrəman Azərbaycan Ordusuna ürəkdən təşəkkür edirik.

Məhz Sizin uzaqgörən və müdrik siyasətiniz Ali Baş Komandan kimi mahir sərkərdəliyiniz sayəsində xalqımız bu Zəfəri yaşadı. Dekabrın 10-da keçirilən Zəfər Paradı isə Sizin “Qarabağ Azərbaycandır və nida” kəlamınıza əbədi bir nida qoydu. Uca Tanrı Sizi, Azərbaycanımızı və bütün azərbaycansevərləri qorusun”.

### “Bu gün uğurlu siyasətinizin bəhrəsini həm də azad olunmuş ərazilərimizdə sürətlə gedən bərpa işlərində görürük”

Qax sakini Aytəkin Musayeva: “Hörmətli cənab Prezident, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən haqlı davamızda qazandığımız möhtəşəm Qələbə münasibətilə Sizi və qüdrətli Ordumuzu təbrik edirəm. Hərbi və siyasi sahədə əldə etdiyiniz möhtəşəm Qələbədən, hər bir azərbaycanlı kimi mən də qürur hissi duyaraq Sizə minnətdarlıq edirəm. Bu gün uğurlu siyasətinizin, çətin və şərəfli işinizin bəhrəsini həm də azad olunmuş ərazilərimizdə sürətlə gedən bərpa işlərində görürük. Allahdan şəhidlərimizə rəhmət, yaralı əsgərlərimizə şəfa, Sizə və ailənizə cansağlığı diləyirəm. Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın qüdrətli Ordumuz! Qarabağ Azərbaycandır!”.

### “Sizin dediklərinizi heç vaxt unutmayacağam və daim Vətənimə xidmət edəcəyəm”

Quba sakini Ömər Əliyev: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, mən Sizi çox sevirəm, hər gün Sizi televiziyada izlədikcə qürur duyuram, çıxışlarınıza fəxrlə baxıram. Otuz ildir ermənilərin tapdağı altında olan torpaqlarımız Sizin və Ordumuzun sayəsində azad edildi. Sizin çıxışlarınız xalqımızı sevindirdi, düşmənə yerini göstərdi. Mənim 8 yaşım var. Uşaq olsam da, Sizin dediklərinizi heç vaxt unutmayacağam və daim Vətənimə xidmət edəcəyəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

### “Bu Qələbə şəxsən Sizin siyasi iradənizin, yürütdüyünüz daxili və xarici siyasətin uğurlu nəticəsidir”

Şamaxı sakini Mayıl Alıcanov: “Hörmətli cənab Prezident, Qarabağ torpaqlarını erməni faşistlərindən tam azad etdiyinizə və Qələbə sevincini bizə yaşatdığınıza görə bütün şamaxılılar adından Sizə dərin minnətdarlığımızı bildirir və Sizinlə fəxr edirik. Bu Qələbə şəxsən Sizin siyasi iradənizin, yürütdüyünüz daxili və xarici siyasətin uğurlu nəticəsidir. Siz erməni faşistləri tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməklə bütün dünya azərbaycanlılarına sevinc yaşatdınız, qürurumuzu, milli mənliyimizi özümüzə qaytardınız, xalqımızın məğlubedilməzliyini bir daha dünyaya göstərdiniz. Azərbaycan Respublikasının Prezidenti kimi şəxsən Sizin və Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərimizdə şərəf və qürur mənbəyimiz, müstəqilliyimizin rəmzi olan bayrağımızı ucaltmaqla dövlətimizin ərazi bütövlüyünü və suverenliyini, xalqımızın mənəvi birliyini, yenilməzliyini və əbədiliyini bir daha sübuta yetirdiniz. Bu böyük Qələbəni və sevinci bizə yaşatdığınız üçün Sizə minnətdarıq. Uca Tanrıdan Sizə uzun ömür, möhkəm cansağlığı və yeni-yeni uğurlar diləyirik”.

### “Bu Qələbə həm də Azərbaycan xalqının özünəinamını və qalibiyyət hissini bərpa etdi”

Gəncə şəhərindən Məhəmməd Zeynalov: “Hörmətli cənab Prezident, Azərbaycan Ordusunun əsgər və zabitlərinin şücaəti, Sizin müdrik rəhbərliyiniz sayəsində qazanılan bu möhtəşəm Qələbə münasibətilə Zatialinizi və xalqımızı ürəkdən təbrik edirəm. 44 gün davam edən Vətən müharibəsində Sizin komandanlığınız altında müzəffər Ordumuz mənfur düşmən üzərində parlaq qələbə çalaraq, 28 il işğal altında qalan torpaqlarımızı azad etdi. Bu Qələbə ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də Azərbaycan xalqının özünəinamını və qalibiyyət hissini bərpa etdi. Cənab Prezident, Siz müasir ordu quruculuğunun ən mükəmməl modelinin müəllifisiniz. Bu Qələbəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk”.

### “Azərbaycan Ermənistan üzərində təkcə hərbi deyil, eyni zamanda, siyasi və psixoloji qələbə qazandı”

Daşkənd şəhərindən Mais İbadov: “Möhtərəm cənab Prezident, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının gücünü bir daha dünyaya göstərdi. Qarabağın işğal altındakı əraziləri Sizin göstəriş və əmrinizlə rəşadətli Azərbaycan Ordusunun keçirdiyi əks-hücum əməliyyatı nəticəsində azad edildi. İkinci Qarabağ müharibəsində Azərbaycan Ermənistan üzərində təkcə hərbi deyil, eyni zamanda, siyasi və psixoloji qələbə qazandı. Bununla Azərbaycan ümumiyyətlə erməni mifini darmadağın etdi. Biz - Özbəkistandakı azərbaycanlılar düşmən üzərində qazanılan bu Zəfəri böyük sevinclə qarşıladıq. Azərbaycan xalqı və Ordusu Sizin ətrafınızda hər zaman bir yumruq kimi birləşib. İkinci Qarabağ müharibəsində Sizin diplomatik addımlarınız və qətiyyətiniz Azərbaycan Ordusunda böyük ruh yüksəkliyi yaratdı. Bu gün Özbəkistanda yaşayan soydaşlarımız da birlik nümayiş etdirərək dövlətimizi və Ali Baş Komandan olaraq Sizin siyasətinizi dəstəkləyirlər. Sizin qətiyyətli çıxışlarınız bizləri fərəhləndirir. Hər birimiz Vətən yolunda döyüşməyə hazırıq. Yaşasın Azərbaycan dövləti! Yaşasın Müzəffər Ali Baş Komandan!”.

### “Sizinlə fəxr edir və qürur duyuruq”

Şirvan şəhərindən Xeyrulla Əzizov: “Hörmətli cənab Prezident, bu əlamətdar, tarixi günlərdə ərazi bütövlüyümüzün tamamilə bərpa olunması münasibətilə şəxsən öz adımdan və Şirvan ziyalıları adından böyük sevinc və qürur hissi ilə Sizi, Müzəffər Azərbaycan Ordusunu və Azərbaycan xalqını təbrik edirəm. Ölkəmizə hərbi və diplomatik sahələrdə qələbə qazandıran uzaqgörən siyasətiniz üçün Sizə təşəkkür edirəm. Möhtərəm Prezidentimiz, noyabrın 10-da Sizin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımla birlikdə Ulu Öndərin məzarını ziyarət edərək ata vəsiyyətini şərəflə yerinə yetirən oğul kimi hesabat verməyiniz, Şəhidlər xiyabanında xalqımıza Qələbə müjdəli müraciətiniz hər bir azərbaycanlının qəlbini riqqətə gətirdi. Sizinlə fəxr edir və qürur duyuruq. Ürəyimiz Vətən uğrunda canından keçən hər bir xilaskar döyüşçü - şəhid üçün kədərlənir. Bu şərəfli oğulları böyüdən ailələrə başsağlığı veririk. Eşq olsun Azərbaycan Ordusuna və onun Müzəffər Ali Baş Komandanına! Qarabağ Azərbaycandır!”.

### “Möhtəşəm hərbi parad Türkiyə və Azərbaycan qardaşlığının nümayişi, Sizin birbaşa uğurlu zəhmətinizin bəhrəsidir”

Almatı şəhərindən Qəhrəman Sadiyev: “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, əvvəla şəxsən öz adımdan və Almatı şəhərində yaşayan Azərbaycanlılar Assosiasiyası adından Sizi və bütün Azərbaycan xalqını bu Zəfər Bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xəyallarımızı, istəklərimizi gerçəkləşdirdiyiniz üçün Sizə böyük minnətdarlığımı bildirirəm. Çox yüksək səviyyədə təşkil olunmuş möhtəşəm hərbi parad Türkiyə və Azərbaycan qardaşlığının nümayişi, Sizin birbaşa uğurlu zəhmətinizin bəhrəsidir. Xalqımıza Sizin kimi Prezidentin başçılıq etməsi çox qürurvericidir. Bu gün hamımız Qələbə sevinci yaşayırıq və bu sevinci bizlərə yaşadan hər bir əsgərimiz var olsun, onların əllərindən, gözlərindən öpürəm və bu yolda şəhid olan hər bir Azərbaycan əsgərinə Allahdan rəhmət diləyirəm, onların ruhları qarşısında baş əyirəm. Yaralı əsgərlərimizə isə Allahdan şəfa diləyirəm. Hörmətli cənab Prezident, biz Sizinlə qürur duyuruq. Sizin rəhbərliyiniz altında Azərbaycanın müzəffər Ordusu yeni tarix yazdı və Siz həmin tarixin, XXI əsrin qəhrəmanı oldunuz. Əminəm ki, bundan sonra da Sizin uzaqgörən siyasətinizlə Azərbaycan yüksək şəkildə inkişaf edəcək və həmişəki kimi bütün mübarizələrdə qalib olacaqsınız. Biz Sizinlə fəxr edirik, Allah Sizi, Ordumuzu, millətimizi qorusun!”.

### “Müzəffər Ordumuzun bərpa etdiyi dövlət sərhədlərimiz Sizin sayənizdə daimi və əbədi olacaq”

Rusiyanın Saratov şəhərindən Bəhmən Qasımov: “Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan, biz Rusiya Federasiyasında vətən eşqi ilə yaşayırıq. Vətənimizin bu ağır günlərində daim xalqımızın yanında olduq. Cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin əsas planlarından biri ölkədə qüdrətli ordu yaratmaq idi və buna görə ona böyük hörmətimiz var. O, dahi rəhbər idi və bu işlər onun xalqına olan məhəbbətindən irəli gəlirdi. Bu məqsədlə Ulu Öndərimiz tərəfindən şanlı Ordumuzun möhkəm bünövrəsi qoyuldu, Siz isə onun layiqli davamçısı olaraq bu Ordunu daha da nizamlayaraq, gücləndirdiniz. Yaratdığınız Ordu 44 gün ərzində 30 il işğal altında olmuş doğma Qarabağ torpaqlarından yağı düşməni iti qovan kimi qovdu. Ard-arda Qələbə xəbərləri ilə bizləri sevindirdiniz. Baxmayaraq ki, 30 il BMT, ATƏT-in Minsk qrupu erməni faşizminə göz yumurdu. Cənab Ali Baş Komandan, Vətənimiz naminə gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Sizinlə və şanlı Ordumuzla fəxr edirik. Allah Sizi, şanlı Ordumuzu qorusun!

Cənab Prezident, bizə mənəvi dəstək olan - bir millət, iki dövlət olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarında gözəl fikirlər söylədi: “Azərbaycanın kədəri bizim kədərimizdir, sevinci bizim sevincimizdir, qələbəsi bizim qələbəmizdir. İlham Əliyev mənim qardaşımdır!”. Bizə dəstək olmaq istəyən digər dövlətlərdən Pakistan, İsrail, Gürcüstan da başqa müsəlman ölkələri də vardır. Biz onların hər birinə bu mənəvi dəstəyə görə təşəkkür edirik. Siz bütün dövlətlərlə əlaqələri Azərbaycanın mənafeyinə uyğun qura bildiniz. Qardaş Türkiyə əsgərlərinin Azərbaycana gəlməsini və gördüyünüz bütün tədbirləri alqışlayırıq. Bu gün igid oğullarımızın qanı, canı bahasına işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli Bayrağımız dalğalanır. Qoy heç vaxt bu bayraqlar enməsin. Allah şəhidlərimizə rəhmət eləsin, onların anaları qarşısında baş əyirik. Yaralı əsgərlərimizi həyata qaytaran hərbi həkimlərimizə minnətdarıq. Cənab Prezident, biz Qarabağımızı gələcəkdə daha da çiçəkləndirəcəyinizə inanırıq. İnanırıq ki, müzəffər Ordumuzun bərpa etdiyi dövlət sərhədlərimiz Sizin sayənizdə daimi və əbədi olacaqdır. Sizinlə, müzəffər Ordumuzla fəxr edirik. Əziz Prezidentimiz, Vətənimizin qəhrəman oğlu, müzəffər Ali Baş Komandanı, xalqımızın əzizləri İlham Əliyev və Mehriban xanım Əliyeva, Sizə bu tarixi günlərdə möhkəm cansağlığı arzulayıram. Əldə etdiyimiz qələbələrə görə Sizə minnətdarıq”.

# Qənirə Paşayeva: Minsk qrupunun uzun sürən etibarsızlığı...

***Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri ilə görüşdəki çıxışı son günlər KİV-lərdə, sosial şəbəkələrdə geniş müzakirə olunur. Həmsədrlər üç onillik boyunca, demək olar, faydasız səfərlərinə haqq qazandırmaq üçün hər hansı cəhd göstərməyin belə yararsız olduğunu anındaca qəbul etdilər.***



O Minsk qrupu əvvəl-axır rəsmən buraxılacaq, həmsədr ölkələri təmsil edən diplomatlar xidmətdən uzaqlaşacaq və s. Amma bu qrupun diplomatiya tarixinin ən uzunmüddətli və uğursuz missiyalarından biri kimi tarixə düşəcəyi şəksizdir. Bizim Qarabağda aldığımız yaralar sağalacaq, şəhərlərimizi, qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik. ATƏT-in Minsk qrupunun həmsədrlərinin isə ilahi ədalətin mühakiməsindən iki dünyada qurtulmaq şansı olmayacaq. Minsk qrupunun missiyasının uğursuzluğu yalnız Ermənistanın arxasöyünlüyü ilə bağlı deyil, bu, həmsədr ölkələrin məqsədyönlü uğursuzluqda maraqlı olması ilə bağlıdır, desək yanlış olmazdı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib.

Q.Paşayeva deyib: "Necə ola bilər ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin birindən, demək olar, 90 faiz, digər ikisindən qismən asılı olan cırtdan Ermənistan onların sözünü uzun illər boyu yerinə yetirməyə bilsin?! Ən sadəlövh insan belə buna inanarmı? Dövlətimizin başçısı haqlı olaraq Minsk qrupunun işinə öz iradlarını həmişə bildirib, budəfəki münasibət də istisna təşkil etmədi. Cənab Prezident çıxışını bu sözlərlə bitirdi: "Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Həmsədrlərin haqq etdiyi bu sözlərdən sonra ağla gələn ilk sual bu olar: Dünyanın ən qonaqpərvər ölkələrindən birinin liderini "Mən Minsk qrupunu səfərə dəvət etməmişəm" deməyə nə vadar edir? - Bəli, bu cavabı Minsk qrupu özü öz işi ilə haqq etdi. Uzun sürən etibarsızlığın bir son nöqtəsi, nidası olmalı idi əvvəl-axır. Biz dünyanın üç böyük ölkəsinin həmsədr sifəti ilə 28 ilə həll edə bilmədiyi işi 44 gün içində çözdük! Buna Azərbaycanın "dəmir yumruğu" deyərlər. O yumruq ki, uzun illər ərzində işğalçının başına enməsinin qarşısını məhz vasitəsiz vasitəçilər, sülh yarada bilməyən "sülhyaradıcılar" alıb. Azərbaycanın sülhə sadiqliyini, qan tökülməsində maraqlı olmadığını başa düşmək üçün diplomat olmağa, böyük dövlətin təmsilçisi olmağa ehtiyac yoxdur. Bunun üçün, sadəcə, vicdanlı olmaq və vicdanın səsini ifadə etmə cəsarətinə sahib olmaq yetərlidir. Doğrudur, biz ölkə olaraq çox əziyyətlər çəkdik, itkilərimiz çox oldu, lakin bizi inandırmağa, "müharibə yox, sülh yolu" sofizmi ilə, Ermənistanın işğal etdiyi torpaqlarda möhkəmlənməsinə münbit şərait yaratmış dövlətlərin, o cümlədən Ermənistanın özünün itirdikləri də az olmadı. ATƏT-in Minsk qrupu bu vəsilə ilə həmsədrlər və ATƏT özü etibarını sarsıtmış oldu. Əgər Ermənistan və ikili standartlardan əl çəkə bilməyənlər, işğalçı ilə işğala məruz qalanı bərabər tutanlar nəticə etibarilə öz istəklərinə nail ola bilmədisə, bu, bir daha, kimin daha çox itkiyə məruz qaldığını və ilahi ədaləti ifadə və təcəssüm etdirmiş olur...

Bölgədə yeni reallıqlar yaranıb. Bəli məhz yeni və məhz reallıqlar - işğalçı tarixi zərbəsini alıb, onun qalib ədası sıfırlanıb, əsl qalibin kim olduğu gün kimi aydın olub. Vasitəsiz vasitəçilərin iç üzü təkzibolunmaz şəkildə müəyyənləşib. Həmsədrlərin Azərbaycana son səfərindən ötən bir il ərzində bölgə və dünyadakı durum çox dəyişib, artıq yeni yanaşmalara ehtiyac var. Qalib Azərbaycan ədalətli sülh üçün xahiş etmir, işğalçılığın durdurulması üçün müraciət etmir. Həmsədr ölkələrin liderləri "münaqişənin hərbi həlli yoxdur" iddiasında israr etsələr də, Azərbaycan mövcud hərbi-siyasi vasitələrlə həll yolunun alternativlərin ən yaxşısı olduğunu sübut etdi. "Status-kvo" Azərbaycan Ali Baş Komandanının iradəsi ilə, məhz hərbi-siyasi yolla, xalqımızın həmrəyliyi, dövlət-xalq birliyi və əlbəttə, Azərbaycan əsgərinin şücaəti sayəsində dəyişdirilib. Biz deyəndə ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına hörmət edin, siyasi lallıq, korluq və karlıqdan başqa bir "cavab" görmədik. Biz vurğulayanda ki, Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür, Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamənin icrası onlar üçün vacib olmalıdır, diplomatik susqunluqdan başqa bir "cavab" görmədik. Deyəndə ki, beynəlxalq vasitəçi olan ölkələrin hər biri öz imkanlarından, potensialından istifadə edərək Ermənistana ciddi sanksiyalar tətbiq edə bilər, ən azı, Ermənistanı işğal etdiyi ərazilərin tərk etməyə çağıra bilər, ancaq siyasi kələf gördük, minbir aldatmaca ilə qarşılaşdıq. "Heç olmazsa, işğalçı nəzarət etdiyi ərazilərin kiçik hissəsindən çıxsın, bu da danışıqlar yoluna inamı gücləndirsin" - "cavab" = "0"... Buradan hansı nəticə əldə edirik? - Münaqişənin dondurulması, daha doğrusu, dondurulmuş kimi görünməsi vasitəçiləri qane edib.

Beləliklə, Minsk qrupunun mandatının gələcəyi tam şübhəlidir və Azərbaycanla mütləq razılaşdırılmalıdır.

Belə bir məşhur deyim var: Qalibləri mühakimə etmirlər. Biz qalibik. Biz öz qalib mövqeyimizdə belə mühakimədən daha çox mükaliməyə üstünlük veririk. Biz əsl qalib duruşu ilə saxta "qalib ədası"nın fərqini nümayiş etdiririk. Biz Azərbaycanıq!".

# "Türkiyənin Azərbaycana verdiyi dəstək hər birmizi qürurlandırır"



"Azərbaycan xalqı milli tarixinin ən möhtəşəm dövrünü yaşayır. "Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər Paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi". Bu fikirləri SİA-ya millət vəkili Eldəniz Səlimov deyib.

E.Səlimov bildirib ki, bu, möhtəşəm bir zəfərdir. Bu zəfər yolunda bizi yalnız qoymayan, daim bizə dəstək olan ölkələr oldu. Bunlardan biri də qardaş ölkə Türkiyədir. Vətən müharibəsinin ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

"Biz bilirik ki, bu münasibətlər bizim aramızda əbədidir. Qardaşlıq missiyasını layiqincə yerinə yetirən Türkiyə şanlı Zəfər Paradındada bizi tək qoymadı. Sayın Rəcəb Tayyip Ərdoğanın səfəri Azərbaycanda hər kəsi sevindirdi, qürurlandırdı. Türkiyənin mənəvi dəstəyi ilə Azərbaycan Ermənistanı məğlub etdi, işğala son qoydu. 44 günün hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın. Qazanılan zəfərimiz bütün dünyaya səs saldı. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi. Bizim gücümüz birliyimizdədir. Yumruq kimi bir olaraq, əzmlə düşmın üzərinə yeridik. Haqqımız olanı geri qaytardıq",-deyə deputat qeyd edib.

***Ceyhun Rasimoğlu***

# Paşinyanın istefa şərti...



Nikol Paşinyan hansı şərtlə istefa edəcəyini açıqlayıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Ermənistanın baş naziri Nikol Paşinyan yaxın vaxtlarda istefası ilə bağlı mediada və sosial şəbəkələrdə yayılan şayələrə münasibət bildirib. "Mən açıqca dedim ki, xalqın mənə verdiyi statusdan yalnız xalqın iradəsinin etibarlı nəticələri əsasında imtina edə bilərəm. Belə bir iradə ifadəsi olmayana qədər baş nazir kimi fəaliyyət göstərməyə davam edəcəyəm və bunu təmiz və vicdanla yerinə yetirməyi öz üzərimə götürmüşəm", deyə Paşinyan bildirib. Ermənis baş nazir ailəsi haqqında, onların uzun müddətdir xaricdə sığınacaq tapdıqları barədə yayılan məlumatlara da toxunub.

"Təxminən bir aydır ki, övladlarımın və ailə üzvlərimin Ermənistanı tərk etməsi barədə yalan xəbərlər dolaşır. Ötən aylarda, xüsusən müharibənin ilk günündən ailəmdən bir nəfər də Ermənistanı tərk etməyib və etməyəcək də", deyə Paşinyan aydınlıq gətirməyə, vətəndaşları inandırmağa çalışıb. Bundan əlavə, baş nazirin sözlərinə görə, gündəlik xəbərlərdə ailəsinə aid olduğu iddia edilən xarici malikanələr və sərvətlər haqqında informasiyalar yayılır. "Ailəmin yer kürəsində sahib olduğu yeganə əmlak, İrəvanın Şenqavit bölgəsində yerləşən bir mənzildir. Bəyan edilmiş vəsaitlərdən başqa başqa əmlakımız yoxdur", deyə Paşinyan hesabat verib. Onun sözlərinə görə, bu gün Ermənistanın qarşısında duran prioritet vəzifə təhlükəsizlik mühitinin sabitləşdirilməsidir və səlahiyyətlilər bunu davamlı olaraq həyata keçirəcəklər.

"Daxili vəziyyətə qayıdaraq bir daha vurğulamaq istərdim ki, Ermənistan vətəndaşları arasında çaxnaşma yaratmağa cəhd edilir", deyə Nikol Paşinyan onun istefasını tələb edənləri çaxnaşma salan adlandırıb. Paşinyan utanmadan bəyan edib ki, respublika vətəndaşları Ermənistandakı xalqın iradəsinin qətiyyətli və geri dönməz olduğuna əmin olmalıdırlar və bundan yan keçmək cəhdləri uğursuz olacaq.

***İnam Hacıyev***

# Xüsusi karantin rejiminə nəzarət gücləndirilib

COVID-19 infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi ilə əlaqədar daxili işlər orqanlarının əməkdaşları tərəfindən ölkə ərazisində gücləndirilmiş nəzarət profilaktik tədbirləri davam etdirilir. DİN Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, paytaxtın hər bir nöqtəsində, eləcə də respublikanın digər iri şəhərləri ilə yanaşı, bölgələrdə də xidmətə cəlb olunan polis və daxili qoşunların hərbi qulluqçuları tərəfindən karantin qaydalarına əməl olunmasına nəzarət daha da gücləndirilib.

Müvafiq icazələri olmadan yaşayış yerini tərk edən şəxslər təyin edilən postlarla yanaşı polis və hərbi qulluqçulardan ibarət mobil qruplar vasitəsi ilə də müəyyən edilir. Həmin şəxslər polisin xəbərdarlıqlarına əməl etmədikləri təqdirdə barələrində yerindəcə inzibati protokollar tərtib olunur. Bir daha vətəndaşlarımızı sərtləşdirilmiş karantin rejimi dövründə polis əməkdaşları ilə yanaşı bu virusla mübarizə aparan digər dövlət orqanları ilə birgə həmrəylik nümayiş etdirməyə çağırırıq.

# Koronavirusa qarşı daha effektiv vaksinin adı açıqlanıb



Çində hazırlanan "CoronaVac" vaksini daha təhlükəsizdir. Xezerxeber.az-ın məlumatına görə, bu açıqlama Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqində verilib. Qeyd edilib ki, hazırda dünyada COVID-19-a qarşı bir neçə vaksin üzərində iş gedir. Lakin Çində olan və "CoronaVac" vaksinini hazırlayan şirkət uzun illərdir ki, bu istiqamətdə çalışır.

Aparılmış araşdırmalar sona çatmaqdadır və vaksinin 95-97% civarında effektiv olması qənaətinə gəlinib. Üçüncü faza olaraq tədqiqatlarda Türkiyə də iştirak edir.

"CoronaVac" vaksini saxlanma şərtlərinə və müddətinə görə də digərlərindən daha əlverişlidir. Birifinqdə gətiriləcək vaksinin ilk olaraq kimlərə vurulacağı da açıqlanıb. Qeyd edilib ki, bununla bağlı strategiya hazırlanır. Strategiyada kimlərin peyvəndlənməsi və vaksinasiyanın könüllü olub-olmaması öz əksini tapacaq.

İlkin olaraq səhiyyə işçilərinin və 65 yaşdan yuxarı şəxslərin koronavirusa qarşı vaksinasiya olunması nəzərdə tutulub.





**_Qarabağdakı 44 günlük müharibə və sonda baş nazir Nikol Paşinyanın təslim aktına imza atması, bütövlükdə Ermənistanın məğlubiyyəti bu işğalçı ölkədə demək olar ki, bütün dövlət qurumlarının iflic olmasına səbəb oldu. Erməni cəmiyyətindəki ciddi iğtişaşlar və narazılıqlar idarəolunmaz kütlənin küçə və meydanlardakı mitinqlərində, nümayişlərində və aksiyalarında özünü biruzə verir. Kütlənin istefa tələbi hələ də öz aktuallığını qoruyur və baxmayaraq ki, erməni baş nazir Nikol Paşinyan bu tələbə dirəniş göstərir, Ermənistan vətəndaşları da tələblərindən əl çəkmirlər. Bu gün erməni dövlətlərinin taleyindən narahat olan hər kəs başa düşür ki, hökumət ölkədəki vəziyyətə nəzarəti tamamilə itirib._**

# Sual altındakı iflic Ermənistan



Bu gün Azərbaycanın qalib tərəf, ərazilərin sahibi olaraq Dağlıq Qarabağda mövqeyi erməni cəmiyyətini xüsusilə narahat edir desək, fikrimizi tam ifadə edə bilmərik. Çünki, bu vəziyyət ümumiyyətlə erməni xalqı üçün daha acınacaqlıdır və onları bərk qıcıqlandırır. Hətta Rusiyalı siyasi ekspertlər belə bu qıcıq barədə etiraflar edirlər. Məsələn, Beynəlxalq "Lazerev Klubu" Şurasının Təşkilat Komitəsinin sədri, Rusiya Federasiyası Federal Məclisi Dövlət Duması Komitəsinin MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla əlaqələr komitəsinin birinci müavini Konstantin Zatulin qeyd edib ki, Bakıda 10 dekabr tarixində keçirilən "Zəfər Paradı" Ermənistanın və erməni xalqının açıq şəkildə alçalmasıdır. Siyasətçinin sözlərinə görə, Nikol Paşinyanın axmaq siyasəti ölkəsini Dağlıq Qarabağ uğrunda müharibədə böyük insani, ərazi və mənəvi itkilər verərək bu respublikanın indi dayandığı ölüm xəttinə gətirdi. O, xüsusilə diqqətə çatdırıb ki, erməni xalqının ölkəsinə olan etibarı tamam itib. Zatulin Ermənistandakı erməni xalqının güclərinə inamsızlıq mühitində tam mövcud ola bilməyəcəyini və irəliləyə ümidinin belə qalmadığını dilə gətirib. Ümumiyyətlə, bu siyasətçinin timsalında indi bütün politoloqlar yaxşı başa düşürlər ki, Ermənistan nə qədər çabalasa da, bu ölkənin baş naziri nə qədər dirəniş göstərsə də, kütlə günahı kim olmasından asılı olmayaraq hansısa qüvvələrin çiyninə qoysa da, bu xilas yolu deyil və səbəb, bu işğalçı ölkənin iflic vəziyyətində olmasıdır.



Ən acınacaqlı, hətta gülünc vəziyyət ondan ibarətdir ki, sürünməkdə olan Ermənistanın vətəndaşları, yaxud bu ölkədəki müxalifət öz xilaskarı olan Rusiya ilə ültimatum dili ilə danışır. Bəzən isə vətəndaşların ruslar qarşısında dilemmalar qoyduğunun şahidi oluruq ki, bu da əndazəni hədsiz dərəcədə aşmaqdır. Əgər erməni xalqı deyilən toplum tarixi faktları unudubsa belə, onların Qafqazda yerləşməsini, məskunlaşmasını, onlara verilən imtiyazların, şəraitin ruslar tərəfindən təmin olunduğunu unudubsa, yaxud unutqanlıq, nankorluq edirlərsə belə, heç olmasa məğlubiyyətləri fonunda son günlərdəki məhv olma, tamamilə qırılıb qurtarma təhlükəsindən onları Rusiyanın xilas etdiyini nəzərə alsınlar. Bu ki, uzaq keçmişdə deyildi və bunu da unutmamalıdırlar axı. Unutmamalıdırlar ki, ikinci Qarabağ müharibəsinin son günlərində ermənilər hər gün daha çox itgi verirdilər və hətta bircə gün belə artıq müqavimət göstərməəri on minlərlə əsgərin tələf olması demək idi. Əbəs yerə deyil ki, erməni baç nazir Nikol Paşinyan məğlubiyyətlərini rəsmən təsdiq edən kapitulyasiya sənədinə sevinə-sevinə razılıq verdi. Təsadüfi deyil ki, qondarma rejim rəhbəri Araik Arutyunyan bundan əvvəlki yekəxana davranışları, qalibiyyət ritorikası fonunda ruslara, vasitəçilik edərək döyüşü dayandırdıqlarına, bu vəziyyətdə onları xilas etdiklərinə görə dəfələrlə təşəkkür edib. Bax bütün bunları nəzərə almalıdır erməni xalqı və bilməlidir ki, mövcudluqları sual altında olub və heç indi də bu sualın altından çıxa bilmirlər. Əksinə, hər gün, hər saat özlərini daha çətin suallar qarşısında qoyur, daha dərin quyuya salırlar.

Bəli, güc strukturlarında, xüsusilə, Müdafiə Nazirliyi, Polis və Milli Təhlükəsizlik Xidmətində bu gün mövcud hökumətə qarşı ciddi narazılıqlar var. Bu strukturların mətbuat xidmətləri bunu qətiyyətlə təkzib etsə də, güclü bir kadr axını olduğu gerçəkliyi göz qabağındadır. Müntəzəm hərbi personal, təcrübəli polis zabitləri və ölkənin əsas xüsusi xidmət orqanlarının peşəkar işçiləri işdən uzaqlaşırlar. Nə xain hesab etdikləri dövlət rəhbərinə, nə də Paşinyan hökumətinə, nə də ümumiyyətlə dövlətə xidmət etmək istəyən yoxdur. Bu toplum yalnız dağıtmaq, məhv etmək istəyindədir. Maraqlıdır, məhv etdiklərinin yerində, uzaqlaşdırdıqlarının əvəzində kimi, nəyi nəzərdə tutur bu toplum? Opportunistlərimi, Sorosçularımı, pozğun məmurlarımı, müvəqqəti kadr kimi ortaya atılan Paşinyanın marianetlərinimi nəzərdə tuturlar ermənilər və elə zənn edirlər ki, əvəz edən kimsə olacaq? Belə şəraitdə hansı gələcəkdən dəm vura bilər erməni cəmiyyəti və yaxud bütövlükdə ermənilər? Təhlükəsizlikdən belə danışa bilərlərmi? Üstəlik, polis xalqına, hətta etirazçıya qarşı döyüşə atılırsa, MTX zabitləri Paşinyana açıq şəkildə tabe və xidmət edərək, siyasi rəqiblərini həbs etmək məcburiyyətində qalırlarsa, deməli, ölkə həqiqətən iflicdir və təhlükə altındadır.

Erməni əsillilərin müharibə zamanı topadıqları vəsait barədə peşmançılıq hislərini ifadə etmələri haqda daha bir fakt bu işğalçı ölkənin mahiyyətini, bir az açıq şəkildə desək, mahiyyətsizliyini və aşağılığını tam şəkildə ortaya qoyur. Səlahiyyətlilərin sinizmi və xalqa qarşı təbiəti həmin biabırçı epizodda aydın görünür. "Hraparak" qəzeti yazır ki, müharibə zamanı "Hayastan" Ümumerməni Fonduna pul köçürən əksəriyyət ermənilər bundan dərindən peşman olublar və bu gün pullarını hətta geri tələb edirlər. Diqqətə çatdıraq ki, amma həmin pullar əsasən ciblərdə olduğundan onların geri qaytarılması üçün heç bir mexanizm yoxdur, heç ola da bilməz. Bax, belə bir vəziyyət var Ermənistanda, hansıki, sözlərlə ifadə etmək mümkünsüzdür.

Bu arada, xatırladaq ki, siyasi qüvvələr də hakimiyyət üçün çalışırlar. Hansısa qüvvə ölkəsini bu iflic vəziyyətindən çıxarmaq barədə düşünmür, onlar yalnız ölkədəki daxili siyasi həyatı pozurlar, qardaşı qardaşa, atanı oğula qarşı çevirirlər. Ölkəni bərpa etmək üçün təsirli bir mexanizm təklif edən yoxdur. Onların əsas məqsədi Nikol Paşinyanı devirməkdir ki, bununla da ölkəni özləri idarə etmək arzusundadırlar. Xalqla maraqlanan yox.

Maraqlıdır, bu gün Paşinyanın istefasını tələb edənlərin hamısı yekdilliklə Rusiya və Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin 10 noyabr tarixindəki üçtərəfli imzalanan sənədi nəzərdən keçirməyəcəklərini və ya ləğv etməyəcəklərini israr edirlər. Xüsusilə bunu, Putinin qəzəbinə düçar olacaqlarından qorduqları ilə izah edirlər. Amma, xatırladaq ki, əsas məqamlardan biri də elə Azərbaycanın həddən artıq qüvvətli olması, ermənilərin sənədə uymadıqları halda burunlarının dərhal ovulacağını başa düşmələri ilə əlaqədardır. Sual oluna bilər ki, əgər elə isə, yəni Ermənistanın siyasi müstəvisində, hadisələrin gedişində heç bir dəyişiklik vəd olunmursa, Paşinyanı Manukyana, birini digərinə dəyişməyin nə mənası var?

***İnam Hacıyev***

# Jalə Əliyeva: ATƏT-in Minsk qrupu: fiasko ilə üz-üzə



*"Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz".*

Bu sözləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev üç gün əvvəl ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri ilə görüşdə bildirdi. Bu, çox sərt və çox sərrast, 28 ildir adı olub, özü olmayan, Ermənistan-Azərbaycan münaqişəsini danışıqlar yolu ilə həll etməyi, vasitəçilik missiyasını üzərinə götürən, ancaq ötən illər ərzində mənası, əhəmiyyəti olmayan bəyanatlar verən, əksər hallarda isə işğalçı ilə işğala məruz qalanı eyniləşdirən, bölgəyə, sadəcə, turist səfərləri edən ATƏT-in Minsk qrupunun həmsədrlərinin timsalında adıçəkilən qrupa verilən ən güzgün qiymətdir. Çünki başqa cür ola da bilməzdi, başqa cür dəyərləndirmə mümkün deyildi...

Milli Məclisin deputatı Jalə Əliyeva AZƏRTAC-a açıqlamasında bildirib ki, 28 il öncə ATƏT-in Minsk konfransı kimi yaradılan, sonra Minsk qrupuna çevrilən, 1997-ci ildən isə 3 ölkənin - həmsədr dövlətlərin monopoliyasında olan bu təşkilat bütün gözləntiləri, ümidləri altüst etdi. Üzərinə götürdüyü vasitəçilik missiyasını yerinə yetirmədi, haqsızlığa, ədalətsizliyə, təcavüzə, işğala məruz qalan və dünyadan ədalət gözləyən Azərbaycan xalqının növbəti xəyal qırıqlığına çevrildi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını tələb etmək və icrasına nail olmaq bir yana, özünün verdiyi bəyanatlara, özünün üzərinə götürdüyü missiyaya, özünün daşıdığı mandata açıq-aşkar hörmətsizlik göstərdi. Qısa zamanda Azərbaycan xalqının haqlı olaraq qəzəb ünvanına, tənqid, istehza obyektinə çevrildi. 28 ildə gəldilər, getdilər, özlərinə "layiq" olan bəyanatlar verdilər, sanki bununla missiyalarını bitmiş saydılar. Hətta ara-sıra ermənilərə vəkillik etdilər, xüsusilə də Minsk qrupunun həmsədri olan ermənipərəst Fransa...Missiyalarını, mandatlarını unutdular, özlərini görməzliyə, bilməzliyə vurdular. Üzərlərinə gedəndə də yaxalarını kənara çəkdilər, "tərəflər razılığa gəlsinlər, biz də dəstəkləyək" dedilər. Daha bilmədilər ki, tərəfləri, xüsusilə, işğalçı və təcavüzkar Ermənistanı razılığa gətirmək, onu sülhə məcbur etmək onların birbaşa vəzifəsi, missiyası idi.

Ancaq etmədilər, etmək istəmədilər, Ermənistanın nazı ilə oynadılar, onun şıltaqlıqlarına, sonu görünməyən cinayətlərinə, sülhə, təhlükəsizliyə birbaşa təhdid yaradan təxribatlarına, fitnəkarlıqlarına göz yumdular. Əvvəlcə statuskvonun qəbuledilməzliyini bəyan etdilər, sonra onun qalmasında ermənilər qədər səy göstərdilər. Bütün yüksək kürsülərdən, üzbəüz görüşlərdən səslənən açıq və ya örtülü, kəskin və ya yumşaq etirazlara, xəbərdarlıqlara da saymazlıq, laqeydlik, biganəlik göstərdilər. Ancaq nəticədə uduzan özləri oldu, uduzan, rüsvay olan açıq-gizli dəstək verdikləri, növbəti işğala iştahalandırdıqları forpost, vassal, terror mahiyyətli Ermənistan oldu. Cəmi 44 günlük tarixi Vətən müharibəsi ilə Ali Baş Komandan İlham Əliyev və onun rəşadətli Ordusu 32 illik münaqişəyə son qoydu. Nə təmas, nə cəbhə xətti, nə status-kvo, nə status, nə də Dağlıq Qarabağ münaqişəsi qaldı... Eləcə də nə ATƏT-ə, nə Minsk qrupuna, nə də onun həmsədrlər institutuna, həmsədrlərə ehtiyac qaldı...Məsələ kökündən həll olundu.

Artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, toydan sonra nağaradan başqa bir şey deyil... Yaxud da, daldan atılan daş topuğa dəyər anlamını verir... Bizim artıq nə danışıqlara, nə Minsk qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz - "dəmir yumruğumuz" var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Məşhur, "öz cəzandır, çək!" , deyimində olduğu kimi...

Bəli, hörmətli həmsədrlər, öz cəzanızdır, çəkin artıq. Biz çox dedik, amma siz az eşitdiniz və nəticəsi də məlumdur. Prezident İlham Əliyevin sözləri ilə desək: "Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır..."

Bəli, biz sentyabrda cavab tədbirlərinə keçdik. Elə cavab verdik ki, onların Ermənistan ordusunu və demək olar ki, erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə, xunta rejiminə son qoyduq, erməni millətçilərinin üzdəniraq "artsax" xülyalarını dağıtdıq, yox etdik! Artıq bu xülya içi hava ilə dolu şar kimi partlayıb. Nə bu adda bir ərazi var, nə də xülyalar... Paşinyan və tərəfdarları, başda Fransa olmaqla, ATƏT olmaqla səhv etdilər, səhv hesabladılar. Böyük bir fiaskoya uğradılar. Çox mənfi bir imic qazandılar. Bu məğlubiyyətdən sonra çətin bir daha qədlərini düzəltsinlər. Biz Qələbə qazandıq. Haqq Azərbaycanın yanındadır. Hüquq Azərbaycandan yanadır. Qarabağ Azərbaycandır!

## Turizm sahəsini seçən fərdi sahibkarın vergi öhdəliyi hansılardır?



Turizm sahəsində qeydiyyatdan keçən fərdi sahibkar fiziki və hüquqi şəxslərə xidmət göstərərsə, sadələşdirilmiş vergiödəyicisi ola bilərmi? Dövlət Vergi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, Vergi Məcəlləsinin müddəalarına əsasən, vergiödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyicisi ola bilməz.

Əhaliyə xidmətlə yanaşı, hüquqi şəxslərə və vergiödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda sadələşdirimiş vergiödəyicisi olmaq hüququ saxlanılır. Sadələşdirilmiş vergi respublika üzrə xərclər nəzərə alınmadan əldə olunmuş hasilatın 2 faizi, gəlir vergisi isə gəlirlərdən xərclər çıxıldıqdan sonra qalan mənfəətin 20 faizi (mikro sahibkarlarda 5 faizi) həcmində ödənilir.

Bununla yanaşı, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə sadələşdirilmiş verginin dərəcəsi 2020-ci il yanvarın 1-dən etibarən 1 il müddətinə 2 faizdən 1 faizə endirilib.

## ABŞ-ın "The National Interest" saytında II Qarabağ müharibəsindən sonrakı vəziyyətin təhlil olunduğu məqalə dərc edilib




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin ABŞ-ın nüfuzlu "The National Interest" saytında "Ermənistanla Azərbaycan arasında sülhün gələcəyi yanaşmaların ciddi nəzərdən keçirilməsini tələb edir" başlıqlı məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə İkinci Qarabağ müharibəsindən sonrakı vəziyyət təhlil edilərək, gələcəkdə mümkün olacaq sülhə dair proseslər barədə şərhlər təsvir olunur.

Müəllif bildirir ki, müharibədən sonra münaqişənin geosiyasi nəticələri ilə bağlı Qərb mediasında çoxsaylı məqalələr dərc edilib və beynəlxalq ekspertlər və jurnalistlər daha çox Cənubi Qafqazda dayanıqlı sülhün təsirlərindən yazmaq yerinə regional güclər və qərb blokunun maraqlarından yazmağa başlayıblar.

F.Şəfiyev yazır ki, ilk dəfə 1988-ci ildə Ermənistan millətçiləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirməyə dair "miatsum" şüarını səsləndirdiyi bir vaxtda Ermənistanda lobbiçilər və influenserlər bunu öz müqəddəratını təyinetmə mübarizəsi kimi təqdim ediblər, Qərb siyasətçiləri və ekspertləri isə bu hərəkatı sovet sistemi ilə mübarizə imkanı kimi dəyərləndiriblər: "Qərb 100 əvvəl Osmanlı imperiyası ilə mübarizədə erməni məsələsindən istifadə etdiyi kimi Ermənistanın bu layihəsinə eyni şəkildə rəğbət bəslədi".

Müəllif qeyd edir ki, Avropa və ABŞ institutları tərəfindən maliyyələşdirilən bir sıra ekspert və alimlər müxtəlif proqram və layihələr vasitəsilə Ermənistan və Azərbaycanı barışdırmağa cəhd edirdilər, lakin hər dəfə Dağlıq Qarabağ tarixi Ermənistan ərazisi kimi göstərilirdi. Azərbaycan isə hər zaman Dağlıq Qarabağa ən yüksək muxtariyyət status verilməsi zəmanəti ilə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin geri qaytarılmasında israr edib. Müəllif münaqişə ilə bağlı vasitəçilərin təqdim etdiyi Madrid Prinsiplərindən yazır və bunun hər iki münaqişə ölkəsi tərəfindən qəbul edilməsinə baxmayaraq, beynəlxalq vasitəçilərin onun müddəalarını icra etmək üçün Ermənistana heç bir təzyiq göstərmədiyini diqqətə çatdırır.

Məqalədə bildirilir ki, Ermənistan qonşuları ilə yaxşı münasibətlərə meyillənməklə gələcəklə bağlı yeni yanaşma sərgiləməlidir. Belə ki, Yerevan Dağlıq Qarabağın müstəqilliyi və digər absurd iddiaları davam etdirsə, ölkə gələcəkdə müstəqil xarici və iqtisadi siyasəti olmayan daha dərin təcrid vəziyyətinə düşəcək. Müəllifin sözlərinə görə, ən acınacaqlısı odur ki, Ermənistandakı vəziyyəti pisləyən Qərb bu ölkənin hazırkı vəziyyətə salan mövqeni təkrar səsləndirməkdə davam edir. Bu baxımdan, müəllif Fransa Prezidentinin anti-Azərbaycan açıqlamalarını və Fransa Senatının Dağlıq Qarabağın müstəqilliyini tanımağa səsləyən bəyanatını xatırladır. Qeyd edir ki, bölgədə Rusiya-Türkiyə əməkdaşlığı münaqişənin həllində aktiv iştirak edə bilməyən Qərb gücləri arasında qısqanclığa səbəb olub: "Rəsmi Moskva və Ankara Qafqazdakı iki etnik qrupu bir araya gətirmək üzərində işləyə bilər və bu kimi səylər dəstək görəcək".

Müəllifin sözlərinə görə, təəssüf ki, bu günə kimi verilmiş siqnallar gələcəkdə davamlı sülhün qurulması ilə bağlı kəskin dəyişikliklərlə bağlı az ümid verir, lakin bununla yanaşı, gələcək əməkdaşlıqla bağlı bir sıra fikirlər artıq səsləndirilib. O, bu baxımdan Prezident İlham Əliyevin dekabrın 1-də xalqa etdiyi müraciətində Naxçıvana çəkiləcək dəhlizin bütün regional ölkələr üçün yeni imkanlar açacağına dair açıqlamasına diqqət çəkir.

## Azər Badamov: Ermənistan bizi yenidən təxribata çəkərsə...



"Rusiya sülhməramlıların öz missiyasını həyata keçirdiyi xəritəsində etdiyi dəyişikliyi erməni beyinin məhsulu hesab edirəm. Döyüş meydanında Azərbaycan ordusuna təslim olmuş Ermənistan rus sülhməramlıların köməyi ilə öz mövqelərini möhkəmlətmək və yaşadıqları ərazilərini genişləndirmək kimi çirkin planlarından əl çəkmirlər. Sülhməramlı qüvvələr 10 noyabrda üçtərəfli imzalanmış bəyanatda göstərilən maddələr çərçivəsində fəaliyyət göstərməlidirlər. Onlara təqdim olunmuş xəritəni dəyişmək və ya missiyanı keçirmək üçün əlavə ərazilərin daxil edilməsinə heç kim hüquq verməyib". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.

Deputatın sözlərinə görə, sülhməramlıların funksiyası erməni silahlı birləşmələrini torpaqlarımızdan çıxarmaq və insanların təhlükəsiz yaşayışnı təmin etməkdən ibarətdir: "Əgər sülhməramlılar özləri üçün müəyyən olunmuş çərçivədən kənara çıxırlarsa, dərhal Azərbaycan dövlətinin qətiyyətli mövqeyi ilə rastlaşacaqlar. Məhz dövlətimizin nümayiş etdiyi ciddi mövqeyi sayəsində qondarma xəritə yenidən ilkin variantına qayıtdı. Azərbaycan ordusu öz ərazisindəki erməni təxribatçı qruplaşmlarını neytrallaşdırılması əməliyyatını davam etdirir və bizə düşmən mövqedə olan kim olursa olsun ərazilərimizdən çıxarmasında israrlıdır".

A.Badamov bildirib ki, son günlər həm də Ermənistanın Xarici İşlər nazirinin sərsəm çıxışlarını da izləyirik: "Cənab Prezidentin də qeyd etdiyi kimi erməni tərəfi əldə olunmuş razılıqdan kənara çıxaraq hər hansı təxribatçı addımların atılmasına başlayarsa, bu, Ermənistan üçün çox ağır nəticələrə gətirib çıxaracaqdır: "Ona görə də ermənilər məğlubiyyətlə razılaşıb sərsəm bəyanatlar səsləndirməkdən çəkinərək çalışmalıdırlar ki, Azərbaycan və Türkiyə ilə qonşuluq münasibətlərinə başlasın. Belə olan halda Ermənistanın dünyaya qapıları açıla bilər və yenidən özlərini inkişaf yoluna qoya bilər. Bu onlar üçün yaranmış bir imkandır. Əgər bu imkandan düzgün istifadə etmədən öz çirkin niyyətlərinə yenidən davam etdirmək istəsələr, bu, Ermənistanı bir ölkə kimi mövcudluğunu şübhə altına salacaqdır. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma Ermənistan bizi yenidən təxribata çəkərsə rəşadətli ordumuz tarixi torpaqlarımız olan Zəngəzuru da işğalçılardan təmizləyəcəkdir".

***Aysel Məmmədova***

# Ermənistanda xaos: Ərzaq bahalaşır, dram ucuzlaşır...

***Ermənistanın müxtəlif bölgələrində, o cümlədən paytaxt İrəvanda və Gümrüdə baş nazir Nikol Paşinyanın istefası tələbi ilə keçirilən aksiyaların fonunda ölkədəki ağır sosial-iqtisadi vəziyyətin qismən də olsa diqqət mərkəzindən kənarda qalmasına baxmayaraq, ərzaq məhsullarının gündən-günə bahalaşması, inflyasiyanın artması erməni ekspertlərini və siyasətçilərini dilə gətirib.***



SİA xəbər verir ki, bunu Trend-ə siyasi şərhçi Elçin Mirzəbəyli deyib. E.Mirzəbəyli bildirib ki, son 1 ay ərzində ABŞ dolları 25, Avro isə 44 dram bahalaşıb: "Bu, Ermənistan Mərkəzi Bankının elan etdiyi rəqəmlərdir. Kommersiya banklarında və valyutadəyişmə məntəqələrində isə xarici valyuta dəfələrlə baha satılır. Dramın ucuzlaşması və valyuta qıtlığı ölkəyə ərzaq məhsullarının gətirilməsində də ciddi problemlər yaradıb. İnflyasiyanın kritik həddə yaxınlaşması Ermənistan dramının devalvasiyası üçün zəmin yaradıb. Erməni ekspertləri devalivasiyanın qaçılmaz olduğunu bildirirlər. Bundan başqa, ölkənin elektrik təchizatında da ciddi problemlər yaşandığı bildirilir. Erməni işğalına son qoyulması nəticəsində azad edilən ərazilərdəki 36 Su Elektrik Stansiyasından 30-nun Azərbaycanın nəzarətinə keçməsi Ermənistanın ölkəmizlə həmsərhəd olan rayonlarında elektrik təminatı ilə bağlı ciddi problemlər yaradıb. Eyni vəziyyət əkin sahələri və dağ-mədən sənayesi ilə də bağlıdır". E.Mirzəbəyli vurğulayıb ki, 30 ilə yaxın bir müddət ərzində Azərbaycanın təbii sərvətlərini talan edən işğalçılar, mövcud reallıqların ÜDM-ə maksimum təsir göstərəcəyini bildirirlər: "Ermənistanın hərbi birləşmələrinin darmadağın edilməsi və işğala son qoyulması nəticəsində təcavüzkarın nəzarətindən çıxan və yalnız buğda əkilən sahə 50 min hektardan çoxdur ki, Ermənistan hər il bu ərazilərdən minimum 550 min ton buğda əldə edirdi. Ümumilikdə isə, Azərbaycan Ordusu 95 min hektar əkin sahəsini işğaldan azad edib ki, bu da Ermənistanın ərzaq təminatında kompensasiyası mümkün olmayan problemlər yaranmasına səbəb olub. Müharibəyə qədər böyük iddialarla çıxış edən Ermənistanda indi reallığa daha yaxın fikirlər səsləndirilir. Məsələn qeyd olunur, erməni xalqına artıq öz taleyi haqqında düşünmək lazım deyil. Çünki onlardan daha heç nə soruşan olmayacaq. Siyasi hakimiyyətə can atanlar müəyyən revanşist bəyanatlar səsləndirsələr də, ictimai rəy reallığı qismən də olsa dəyərləndirməyə başlayıb və gələcək nəsillərə indikindən nə qədər az ərazi və nə qədər çox borc qoyacaqlarından danışırlar".

## Ermənilər şokda: müdafiə nazirliyi silahlılara yarıdm etməyəcək!

***"Müharibədən sonra Qubadlının və Zəngilanın bir hissəsi erməni güclərininin nəzarəti altında qalırdı. Bu əraziləri ordu deyil, Sünikin (Zəngəzur) şəhər və kəndlərinin özünümüdafiə dəstələri saxlayırdılar. Belə ki, Qubadlı və Zəngilan rayonları qonşu Laçından fərqli olaraq 9 noyabr razılaşmalarının tərkibində deyildilər, məhz erməni dəstələri bu ərazini saxlamağa davam edirdilər". SİA xəbər verir ki, bu fikirlər ermənilərin "Armyane vseqo mira" ("Bütün dünyanın erməniləri") telegram kanalında yazılıb.***

### "Gözlərimizin qarşısında Gorus-Qafan yolu üzərindəki mövqelərimizi təhvil verirlər"



"Bu gün (dünən) azərbaycanlılar qəti şəkildə tələb ediblər ki, könüllü dəstələr bu ərazilərdən geri çəkilsinlər, əks halda bütün qüvvələri və vasitələri ilə hücum edəcəklərini bildiriblər", deyə qeyd edən erməni telegram kanalı əlavə edib ki, azərbaycanlı hərbçilər onları "sovet" sərhədlərinə doğru geri çəkilməyi tələb olaraq irəli sürüblər. Lakin bununla yanaşı, qeyd olunur ki, Azərbaycanın güc tətbiq etdiyi halda Ermənistanın müdafiə nazirliyi könüllü silahlı dəstələrə yardım göstərməyəcək. "Bax bu cür, bizim gözlərimizin qarşısında Gorus-Qafan yolu yolu üzərindəki strateji mövqeləri təhvil verirlər. Yeni sərhədə görə, Qafan nəinki sərhədyanı ərazi olacaq, o birbaşa sərhəddə yerləşəcək", deyə ermənilər yazır.

***Rövşən***

# Ermənilər "müstəqillikdən" imtina edib Rusyanın tərkibinə keçirlər?

*Ölkə KİV-ləri həyəcan təbili çalırlar*

***Ermənistanda anti-Rusiya meyillərinin yenidən artması prosesi sürətlə davam edir və söz-söhbətlər bu dəfə Nikol Paşinyanın hakimiyyətə gəldiyi ərəfələrdə - Qərbin, daha dəqiq desək, Sorosun ona diktə etdiyi həmin tezis ətrafında getmir, söhbət.***

Rusiya sülhməramlılarının əsas mövqelərinin yerləşdiyi Xankəndində baş verənlərdən gedir. SİA xəbər verir ki, artıq Ermənistanın aparıcı KİV-lərində sözügedən mövzu durmadan artır. Xüsusilə, "Çox sağ ol Rusiya" şüarının ermənilərin Qarabağdakı yaşadıqları ərazilərdə əsas mövzuya çevrilməsi bütövlükdə onların qeyri-müəyyən vəziyyətdə qalmalarını kifayət qədər sübut etməkdədir.

Bu arada Ermənistanın Armenianreport saytında sözügedən məsələ ilə bağlı işıq üzü görən analitik yazıda bir sıra ilginc məqamlara toxunulub. Məqalədəki bəzi maraqdoğurucu nüansları təhlil edərkən, bir daha isbat olunur ki, Ermənistan açıq-aydın şəkildə olan-qalan suverenliyini itirir.

### Armenianreport: "Bəlkə həqiqətən də bizə müstəqillik lazım deyil?"

"Dəhşətlidir, ancaq həm Ermənistandakı, həm də "arsaxdakı" bir çox insanlar səmimiyyətlə qənaətə gəlirlər ki, artıq müstəqillik onlara lazım deyil və öz vətənlərini Rusiyanın əlinə verməyə hazırdırlar", qeyd edilən məqalədə bildirilir ki, sayt olaraq (armenianreport) onlar dəfələrlə Ermənistanın müstəqilliyinə qarşı çıxış edən erməniləri sərt və aşağılayıcı şəkildə tənqid hədəfinə çeviriblər: "Xatırlayırıq ki, belə bir şərəfə Rusiya erməniləri ittifaqının prezidenti Ara Abramyan və kremlyönlü politoloq Sergey Kurqinyan nail olublar. Onlar bəyan ediblər ki, Ermənistana müstəqillik lazım deyil və bizim ölkə Rusiyanın tərkibində olduğu vaxt komfortlu, təhlükəsiz və toxluq olacaq. Kim düşünə bilərdi ki, bu gün mən ürək ağrısı ilə vətənpərvərliyi olmayan, Ermənistanın müstəqilliyinə hörmət göstərməyən insanları dəfələrlə tənqid etdiyim halda, indi onlarla razılaşmalıyam. Bəlkə həqiqətən də bizə müstəqillik lazım deyil?".

### Tevos Arşakyan: "Putinə yalvarırlar ki, o onların Azərbaycanın nəzarətində qalan ərazilərdəki övladlarının nəşlərini geri qaytarılmasına kömək etsin"



Saytın analitiki Tevos Arşakyan sözügədən yazısında davam edir: "Ətrafınıza baxın hörmətli həmvətənlər, siz nəyi görəcəksiniz? Hakimiyyətin, dövlət idarəçiliyinin iflic olmasını, apatiyanı və ictimaiyyətin başını itirməsini. Ancaq baş nazir Nikol Paşinyanın simasındakı hakimiyyət, hökumət və deputatlar ölkə qarşısında dayanan problemləri həll etmək gücündə deyillər və bu, hər kəsə aydındır. Baxın, dərdlərlə dolu olan insanlar Rusiyanın İrəvandakı səfirliyinə və Gümrüdəki konsulluğuna müraciət edirlər, Putinə yalvarırlar ki, o onların Azərbaycanın nəzarətində qalan ərazilərdəki övladlarının nəşlərini geri qaytarılmasına kömək etsin. Bu sizə qəribə gəlmirmi hörmətli oxucular? Əsirlərin dəyişdirilməsi və meyitlərin qaytarılması üçün ermənilər İrəvandan deyil, Rusiyadan xahiş edirlər. Əgər bu və ya digər problemləri bizim yerimizə ruslar həll edirlərsə, onda aydın deyil, hökumət və dövlət nəyə lazımdır?".

### Məktəblərində "Çox sağ ol, Rusiya" bannerləri qurulur"

Əslində, həqiqətləri ehtiva edən bu analitik yazıda digər maraqlı məqamlara da toxunulur. Erməni müəllif davam edir: "Nə vaxtsa "Dağlıq Qarabağ Respublikası" (dırnaqlar bizimdir) adlandırılan yerdə işlər daha pisdir. Baxın, Stepanakertdəki (Xankəndidə), Mardakertdəki (Ağdərədə), Əsgərandakı məktəblərdəki ləvazimatlar Rusiya tərəfindən təmin olunur. Rusiya oraya dəftərlər, qələmlər, karandaşlar göndərir, məktəbləri təmir edir. Bəs onda "artsaxın" (Qarabağın) və Ermənistanın müvafiq müəssisələri nə ilə məşğuldurlar? Onlar iflic olublar və birbaşa üzərlərinə düşən vəzifələrinin öhdəsindən gələ bilmirlər. Nəticədə Stepanakertin (Xankəndinin) məktəblərində "Çox sağ ol, Rusiya" bannerləri qurulur".

Müəllif şəhərlərdə və kəndlərdə infrastrukturların ruslar tərəfindən bərpa edildiyini yazır və eyni zamanda, insanların təhlükəsizliklərinin də rus ordusu tərəfindən təmin edildiyini bildirir. "Bunun qarşılığında "artsax" sakinlərində belə bir hiss yaranır ki, nə onların özləri, nə də Ermənistan heç nə edə bilmir, onlara yalnız Rusiya kömək edə bilər. Əgər bu cürdüsə, onda bizə dövlətçilik nəyə lazımdır ki, onda Rusiyanın tərkibinə doğru getmək lazımdır. Və mən rəngləri qatılaşdırmıram - Stepanakertin (Xankəndinin) sakinləri ilə danışın, çoxu artıq indidən xəyal edirlər ki, Rusiyanın tərkibinə daxil olsunlar. Ermənistanın deyil, Rusiyanın", deyə qeyd edilən məqalədə bildirilir və o da yazılır ki, bununla ermənilər özlərinin "müstəqillik" maraqlarının olmadığını nümayiş etdirməkdədirlər.

### "Qoy bizim yerimizə hər şeyi Rusiya həll etsin"

SİTAT: "Əlbəttə, müvafiq düşüncələr nə Ermənistanda, nə də "artsaxda" (Qarabağda) yeni deyil. Hələ Koçaryanın vaxtında insanlarda müstəqilliklə bağlı məyusluq yaranmışdı. Məhz onda Rusiyaya miqrasiya başlandı və həmin vaxt vətəndaşlarda sabaha olan özünəinamsızlıq yarandı. 2018-ci ildə isə Paşinyan hakimiyyətə gəldi. Ancaq o da hər şeyi uduzan, reytinqini itirən populist çıxdı. Və bu gün xalqın apatiyası, müstəqil ölkədə normal həyatına dönməsinə inanmaması bu populizmin nəticəsidir. Əgər yaxın vaxtlarda vəziyyət yaxşılığa doğru dəyişməsə, əgər hakimiyyətə milli orientasiyalı hökumət gəlməsə, onda biz çox yəqin ki, müstəqilliyin lazımsızlığı barədə düşünməyə başlayacağıq. Qoy bizim yerimizə hər şeyi Rusiya həll etsin".

Beləliklə, göründüyü kimi, həqiqətən də Ermənistanda hökm sürən çar-naçarlıq, başıpozuqluq reallığı həmin ölkənin nəinki müstəqil olmadığını, həm də dövlətçilik funksiyalarının itirildiyini açıq-aydın göstərir.

***Rövşən RƏSULOV***

# Nikol, “məsuliyyətsizlik inqilabı” və bədbəxt Ermənistan

Nikol Paşinyan və onun “məsuliyyətsizlik İnqilabı” Ermənistana ağır itkilər gətirdi. Küçə nümayişçısının baş nazir postuna can atması və həmin kresloya dırmaşması bədbəxt Ermənistan tablosunu dərhal yaratdı. Ola bilsin ki, həmin anlarda erməni cəmiyyəti bunun fərqində deyildi və görə də bilmirdi ki, bu hansı fəlakətlər deməkdir onlar üçün. Amma indi artıq fərqindədir. Fərqindədir ki, küçədən gələn bir yalançı, gopçu dövlət rəhbəri ola bilməz. Dövlət rəhbəri olmaq üçün dövlətçilik, idarəetmə təcrübəsi, liderlik qabiliyyəti, siyasi iradə və digər üstün keyfiyyətlər lazımdır, goplamaq, uydurmaq təcrübəsi yox.

Kütlə ola bilsin qısa bir zaman kəsiyində aldadıla bilər. Ola bilsin həmin qısa zaman kəsiyində kütləni hansısa bir hiyləgər hansısa bir səmtə yönəldə bilər. Amma, özü kor kimi həmin səmti görə bilməyən birinin yönəltdiyi istiqamət kütləyə heç də doğru yol ola bilməz. Qeyri-müəyyənlik heç zaman çıxış yolu olmayıb və ola da bilməz. Bunun tarix boyu müsbət nəticələr verdiyinin şahidi olan yoxdur. Çünki, aforizmdə də deyildiyi kimi, divar qurtarandan sonra kor necə, nəyin hesabına irəliləyə, yaxud hərəkət edə bilər axı?

Tarixdə yalançı pəhləvanlara, uydurma sərkərdələrə, müvəqqəti krllara, dövlət başçılarına çox rast gəlinib və aqibətlərinin də bədbəxtlik olduğu faktları danılmazdır. Yalan üzərində qurulan, pafos və populizmlə idarə olunan dövlət nəyin üzərində dayanmalıdır? Dövlətlər iqtisadi qüdrətlərinə söykənərək, potensiallarına arxalanaraq ayaqda qalacaqlarına əmin olduqları halda Ermənistan Nikolun goplarına arxalanmalı idi, yoxsa əsassız, populist vədlərinə, yalanlarına?

Rudolf Erix Raspenin bir gopçu barədə, Baron Münhauzen adlı bir uydurmaçının sərgüzəştləri haqda yazdıqları yadıma düşür. Ədib bu əsərində qəhrəmanının həqiqətə uyğun olmayan fantastik təxəyyülünü ön plana çəkir və onun uydurmalarını oxucularına təqdim edir. Əslində hər bir hekayənin sonunda danışılan yalanın, uydurmanın mümkünsüzlüyü qənaəti aşılanır müəllif tərəfindən. Eyni zamanda diqqətə çatdırılır ki, belə yalanlarla nə vəziyyətdən çıxmaq mükündür, nə də bunun faydası ola bilməz. Amma görünür, erməni cəmiyyətinin Raspe haqda, onun bu yaradıcılığı barədə xəbəri olmayıb və öz xoşu ilə, istəyərək bir yalançıya inanmaq arzusunda olub. Belə baxanda bu biçarələr kimə inanmalı idilər axı? Guya ki, yalançı bir Paşinyan idimi? Bunların Sarkisyanları, Koçaryanları, Ter-petrosyanları guya ki, yalançı, avantürist deyildilər? Ermənilər sadəcə yağışdan çıxıb, yağmura düşdülər. Amma bu yağmur sel olub onları dərin quyuya daşıyıb apardı ki, buradan da çıxmalarının müşkül olduğunu indi hər biri yaxşıca başa düşür.



Ermənistan ictimaiyyəti hazırda “pozitiv” sözünü istifadə etməkdə belə çətinlik çəkir. Çünki, buna zərrə qədər ümii yoxdur. Nə ilə olsun axı? Bu ölkə rəhbərləri öz vətəndaşlrı üçün nə qoyublar? Hansısa qlobal layihə işlənib hazırlanıb, yoxsa hansısa layihədə iştirak etmək şansı verilib onlara? Bəlkə hansısa emal müəssisəsi tikilərək istifadəyə verilib? Yaxud, bu işğalçı ölkənin bəlkə hansısa xarici ölkə ilə hansısa iqtisadi əlaqələri qurulub, bizim xəbərimiz yoxdur? Bəlkə, heç olmasa kənd təsərrüfatı üçün müəyyən planlar, layihələr nəzərdə tutulub, biz bilmirik? Ya da turizm sahəsi üçün bəlkə hansısa investisiyalar yatırılıb, bundan ümumiyyətlə dünyanın xəbəri olmayıb? Əsla. Heç bir iş görülməyib. Nə Nikol, nə də ondan öncəkilər bu ölkə, bu ölkə vətəndaşları üçün heç bir iş görməyib. Aldadıblar yalnız. Torpaq qazandıqları ilə, özgəsinin olanı işğal yolu ilə mənimsəmələri ilə kütlənin başını doldurublar. İndi həmin kütlə, bunun da mənasız olduğunu gördükdə, hər şeyin əldən çıxdığının fərqində olduqda, necə deyərlər, quru yerdə qaldığını dərk etdikdə haqlı olaraq ölkədə partlayışlar yaratmağa meyilli olur. Sual oluna bilər ki, bəs bu kütlə, Ermənistan adlı ölkənin, heç bir perspektivi olmayan bir dövlətin vətəndaşları başlarına haranın daşını tökməlidirlər? Rusiyanın, yoxsa Qərbin? Bundan da məhrumdurlar. Şünki, rəhbərləri bu daşlardan da məhrum edib öz tayfasını. İndi axmaq və xain saydıqları Paşinyan bəzən cəsarətlənərək bəyan edir ki, dağıdılan ondan əvvəldən dağıdılmışdı və ondan əvvəl də erməni toplumu yalanlarla doyuzdurulub və tovlanıb. İndi müxalifətin baş nazir postuna namizəd olaraq təqdim etdiyi Vazgen Manukyan özü də vəziyyəti dəyişməyin mümkünsüzlüyünü açıq şəkildə bəyan edir və o zaman sual oluna bilər ki, bu halda erməni cəmiyyəti niyə rəhbərini dəyişmək niyyətindədir və bu namizədi irəli sürənlər nə iddiada ola bilərlər? Bəlli olmurmu ki, yenə də aldadılır erməni cəmiyyəti? Bir sözlə, Paşinyan nə birincidir, nə də sonuncu və bu yalançılıq, aldatma Ermənistanda dövlət siyasəti, eləcə də strategiya olaraq rəsmi şəkildə qəbul edilir. Bunu müharibə zamanı yalan informasiyaları cəmiyyətə çatdırmanın qəbuledilən olduğunu deyən siyasilər, hərbçilər də etiraf edirdilər ki, onlar üçün bu normal haldır. Hətta son döyüşdə informasiya tam 100 faiz yalan olaraq çatdırılıb.

Paşinyanın “məsuliyyətsizlik inqilabı” məhkəmə sistemini də hədəfə aldı bu ölkədə. Bu şəraitdən istifadə edən küçə nümayişçisi, əsl fırıldaqçı özündən əvvəlki hakimiyyətə qarşı repressiyalar həyata keçirməyə başladı. Əleyhində olan bütün fikir ayrılığı olanları aradan götürməyə, ən azından həb etməyə başladı. Kimsə dırnaqarası inqlabçıya bir kəlmə də qanunsuğu barədə deyə bilmədi. Söz azadlığı, ifadə azadlığı dərhal boğuldu. Müstəqillik deyilən bir məvhum bu işğalçı ölkənin qanunvericilik müstəvisində də qalmadı.

Ümumiyyətlə, nə qaldı Ermənistanda? Meydanlarda bar-bar bağıran və bağırtılarından öz qulaqları kar olan kütlədən, onun narazılığından, etirazlarından başqa nə qaldı? Hanı bəs onlara vəd olunan qızıl dağlar? İstər Nikol Paşinyanın, istərsə də ondan əvvəlkilərin verdikləri sözlər harda qaldı? Hanı Dağlıq Qarabağda qondarma yaradılan rejim? Harda tülkü kimi gizlənib Araik Arutyunyan? Necə oldu ermənilərə sırınan o dırnaqarası “yenilməz erməni silahlı qüvvələri”? Qaçıb aradan çıxan, silahları belə qoyub geri çəkilən həmin o dırnaqarası “yenilməzlər” harda qaldılar, hara çəkildilər, hara yox oldular, tülkü kimi kol-kosa dürtüldülərmi? Yaxud, hazırda yaşadığı kəndi guya tərk etməyəcəyini deyən erməni “igidi” İrəvan küçələrində nə gəzir indi? Deməli, onun da dedikləri yalan və məsuliyyətsiz sözlər olub.

Bu xalq, bu erməni toplumu məsuliyyətsiz iddialarla, mənasız və əsassız əfsanələrlə aldadılıb, özü də əsrlər boyu. “Böyük Ermənistan” deyərək, dənizdən dənizə xalyasını ortaya atanlar özləri də bilirdilər ki, bu toplum, bu qqaraçı tayfası mövcudluğu tarixində heç zaman dənizi gözü ilə belə görməyib. Sevan adlandırdıqları və əslində bizə, Azərbaycana məxsus Göyçə gölündən başqa bir dənə də dəryaça kənarında məskunlaşmayıblar. Onların bu “dənizdən dənizə” cəfəngiyyatları bütün varlıqlarını dənizin, hətta okeanın dərinliyinə batırmaqdadır.

Ola bilsin, hansısa zamanlarda vaxtaşırı “qızışan” ermənilər, hansısa türk obalarında törətdiklərini də özləri “inqlab” hesab ediblər, elə Paşinyanın özü kimi. Amma, sonda bu “qızışma” onlara eynilə ötən əsrin əvvəllərində olduğu kimi, sonuncu Qarabağ savaşında olduğu kimi baha başa gəlib. Yəni işğalçı, yerrorçu toplumun bu əməlləri ancaq “məsuliyyətsizlik inqlabı” hesab oluna bilər və sonunda ölkələrinə bədbəxtliklər gətirdiyi hər zamanda öz təsdiqini tapıb. Bu gün də Nikolun inqlab adlandırdığı həmin o iki il yarım bundan öncəki xaosun bədbəxt Ermənistan tablosunu ortaya qoyduğu günün reallığıdır.

*İnam Hacıyev*

## “Hraparak” qəzeti: Baş Qərargah rəisi Paşinyanın əmrindən imtina etdi

Ermənistandakı 1 mart hadisəsində Robert Köçəryana qarşı irəli sürülən ən mühüm ittiham, onun təlimatı ilə siyasi proseslərə nəzarət etmək üçün əsgər köçürməsinin təşkil edilməsi olub. SİA Ermənistana məxsus armenian-report.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə “Hraparak” qəzeti yazır.



“Müdafiə Nazirliyindəki etibarlı mənbəmizin verdiyi məlumata görə, bir neçə gün əvvəl Nikol Paşinyan Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisi Onik Qasparyanla əlaqə saxlayaraq ordunun xəbərdar edilməli və əmri ilə şəhərə göndərilməli olduğunu söyləyib. Onik Qasparyan nəyə görə sualı ilə ondan soruşub. Paşinyan isə cavab verib ki, guya, xüsusi təyinatlı obyektlərin qorunması üçün.

Onik Qasparyan Baş Qərargah rəisi olduğu müddətdə qoşunların daxili siyasi proseslərə qarışmayacaqlarını və şəhərə gətirilməyəcəyini bildirib. Söhbət elə oradaca bitib. Bundan sonra Qasparyan müdafiə naziri Vaqarşak Arutyunyanla əlaqə qurub və həmin söhbət barədə danışıb. Hətta xahiş edib ki, baş nazir eyni mövzuda ona müraciət edərsə, o da eyni cavabı versin”, deyə qəzet öz mənbələrinə istinadən yazır.

## “Xankəndindəki terroçular Rusiya sülhməramlılarına arxayındır”

“Ermənistan siyasi rəhbərliyinin və Xankəndində terrorçu Araik Arutunyanın əsas planı Hadrutu geri almaqdır. Məhz bu məqsədlə Hadrut ətrafında meşəliklərə Turşsu istiqamətindən təchizat yığıb, hücum ediblər. Bir aydan artıq mühasirədə qalıb, soyuq və qida çatışmazlıqdan onlar buranı tərk edə yaxud təslim ola bilərdilər”. Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.



Onun sözlərinə görə, Xankəndindəki terroçular Araik Arutunyan, Vitali Balasanyan Rusiya sülhməramlı qüvvələrinə arxayın olub, Azərbaycan Ordusunun hücum etməyəcəyinin fərqindədirlər: “Onlara Rusiya sülhməramlı qüvvələri bu qədər dəstək verib ki, Hadrut əməliyyatlarına start veriblər. Bu, birbaşa imzalanmış bəyannəmənin pozulmasıdır. Azərbaycan adekvat əməliyyat nəticəsində iki kəndi və bir yüksəkliyə nəzarəti ələ alıb. Bundan sonra Ermənistan prezidenti Moskvaya müraciət edib. Onların bu uğursuzluğundan sonra, belə qəfil toparlanmaları və müraciətləri Hadrut planlarının pozulmasından irəli gəlir. Məqsəd Hadruta Rusiya sülhməramlı qüvvələrinin yerləşdirilməsidir. Bu prosesdən Moskva da məmnundur. Çünki Rusiya Dağlıq Qarabağda belə bir insdentlərin davam etməsində maraqlıdır ki, Qarabağda sülh və təhlükəsizlik təmin edilməsin və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanmasın”.

Politoloq hesab edir ki, Türkiyə-Azərbaycan tandemi Rusiyanın bu planının qarşısını alacaq. Azərbaycan Prezidenti İlham Əliyev Minsk qrupu həmsədrlərinə diplomatik master-klassı bütün siyasi-hərbi üstünlüyün Azərbaycan tərəfində olduğunu nümayiş etdirdi: “Göründüyü kimi, Ermənistan prezidenti və Qarabağdakı separatçıların əsas fəaliyyəti Dağlıq Qarabağda münaqişəni davam etdirməkdir. Azərbaycan qəti şəkildə buradakı silahlı erməni birləşmələrinin çıxarılmasını tələb etməlidir. Əgər qalacaqsa, Rusiya onlardan istifadə edərək daima təhlükəsizliyi təhdid edəcək. Rusiya sülhməramlı qüvvələrinin son günlər qurduqları postlarında mühəndis istehkam işlərini davam etdirməsi məhz bu planın tərkib hissəsidir. Yoxsa, sülhməramlılar bu qədər güclü müdafiə sistemlərini necə qursunlarki?! Qeyd edim ki, ermənilərlə birgə yaşayış və azərbaycanlıların bu ərazilərə köçürülməsində Rusiya da maraqlı görünmür”.

*Ceyhun Rasimoğlu*

## “Minsk qrupu ilə əməkdaşlığımızı davam etdirməliyik”




“ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsini həll edə bilmədisə belə, mən hesab edirəm ki, biz bu təsisatla əməkdaşlığımızı davam etdirməliyik”. Bunu SİA-ya Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə, münaqişəni Azərbaycan özü hərbi yolla həll elədi, lakin bu münaqişənin hərbi mərhələsinin başa çatmasıdır, yəni birinci mərhələsi, gələcəkdə Qarabağ bölgəsində xalqların sülh içində yaşaya bilməsi üçün etimad və sülh mühitinin yaradılması istiqamətində bir çox işlər görülməlidir: “Yaşanan son hadisələr onu göstərir ki, bu istiqamətdə bir çox işlərin görülməsinə ehtiyac var. Biz bəri başdan ATƏT-in ABŞ və Fransalı həmsədrlərinə münaqişə artıq həll olundu və sizə artıq burada yer və yaxud ehtiyac yoxdur deməklə Rusiyanın bölgədə əlinin qolunun tam açılmasına əsas yaratmış oluruq. Əlbəttə ki, bu situasiya Rusiyaya sərf edir, çünki Rusiya münaqişənin həllində şəriksiz lider olmaq istəyir. Lakin dediyim kimi sonrakı mərhələdə işğaldan azad edilmiş torpaqlarda sülh quruculuğu, xalqlar arasında etimad mühitinin yaradılmasında Avropa İttifaqı və ABŞ qurumlarının iştirakı bölgənin gələcək inkişafı üçün faydalı ola bilər”.

# "Dağlıq Qarabağ Muxtar Vilayəti" necə yaradılmışdı?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Ermənilərin Qarabağda Azərbaycan tərkibində muxtariyyət alması və bu vilayəti Sovet dövründə Ermənistanın tərkiblərinə keçirə bilməməkləri 80-ci illərin sonunda burada işğalçılıq, seperatçılıq və terrorçuluq siyasətinə rəvac verdi. Bəs Qarabağda muxtar vilayət necə və niyə yaradıldı? Bu yazıda həmin dövrün buna gətirib çıxaran bəzi proseslərinə toxunacağıq.***

## Qafqaz Bürosunda Qarabağ mübahisələri

*Əvvəlcə, Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV)-nin yaradılması tarixinə baxaq.*

**5 iyul 1921-ci il. RKP MK Qafqaz Bürosu plenumunun iclas protokolundan**

İclasda RKP MK üzvü Stalin, Qafqazbüronun üzvləri Nərimanov, Orconikidze, Kirov, Oraxelişvili, Fiqatner, Myasnikov, ASSR Xalq Xariji İşlər Komissarı Hüseynov iştirak edirdilər.

Orconikidze və Nazaretyan əvvəlki Plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar.

Qərara alındı ki, azərbaycanlılar və ermənilər arasında milli sülhün zəruriliyindən və yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq Dağlıq Qarabağ ASSR tərkibində saxlanılsın, ona inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti verilsin. Qərar 4 lehinə, 3 bitərəf olmaqla qəbul olunur. (Fotoya bax-red)

(Mənbə: Sov. İKP MK yanında MLİ PAAF. (indi ARDSRİHA), f. 64, siyahı 2, iş 1, v. 118; 122-122ob; K istorii obrazovaniə Naqorno-Karabaxskiy avtonomnoy oblasti Azerbaydjanskoy SSR, s. 90-91; 92).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarlar Soveti yaradıldıqda yerlərə fövqəladə komissarlar da təyin olundu. Bu əsasla A.N.Karakozov (1890-1938) Dağlıq Qarabağ üzrə fövqəladə komissar təyin olundu.

Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistan Respublikasına nota verdi və tələb etdi ki, Zəngəzurdan və Qarabağdan öz qoşunlarını çıxarsın. Belə ki, Musavat hökuməti 1919-cu ildə qoşunlarını Zəngəzurdan çıxardıqdan sonra erməni silahlı dəstələri bu bölgəni ələ keçirmiş, azərbaycanlı əhalini oradan qovmuş və orada ermənilər məskunlaşdırmışdılar. Bölgə faktiki olaraq ermənilərin əlində idi. Eyni proses Qarabağda da gedirdi.

1920-ci il 29 noyabr tarixində Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə xarici sərhədlərlə yanaşı, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu.

Nərimanovun tələbləri və təzyiqləri nəticəsində Ermənistan İnqilab Komitəsi 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkdiyini bildirirdi. Lakin Ermənistan Qarabağ iddialarından çəkilmək istəmirdi.

Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi prosesində Dağlıq Qarabağ məsələsi yenidən aktuallaşdı. Tiflisdə Azərbaycan KP MK-nın Siyasi Bürosu və Təşkilat Bürosunun, Mərkəzi Komitəsinin katibi Q.Kaminskinin sədrliyilə keçirilən 27 iyun iclasında komissiyanın işi ilə əlaqədar Azərbaycanın Ermənistanla sərhədi haqqında məsələ müzakirə edildi.

Bu iclasda 5 maddədən ibarət qərar qəbul olundu. İlk dəfə burada Dağlıq Qarabağa bəyan edilən öz müqəddəratını təyin etməyə Azərbaycanın baxışı ifadə olundu:

"Məsələnin (Dağlıq Qarabağ haqqında) yeganə həlli erməni və müsəlman kütləsinin Sovet quruculuğu işinə geniş cəlb edilməsi (yoldaş Nərimanovun Bəyannaməsindən aydın olduğu kimi) ola bilər".

Problemin həlli haqqında Siyasi Büro və Təşkilat Bürosunun fikrinin Tiflisə çatdırılması Nərimanova həvalə edildi. Nərimanovun Tiflisdə olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) sədri M.H.Hacıyev və xarici işlər naziri M.D.Hüseynovla elə həmin gün birbaşa xətlə danışığı oldu.

Nərimanov: "Deyin ki, bu Siyasi və Təşkilat Bürosunun fikridir. Əgər onlar mənim bəyannaməmə istinad edirlərsə, bəyannamədə hərfən belə deyilmişdir: Dağlıq Qarabağa tam azad öz müqəddəratını təyin etmə hüququ verilir".

Hüseynov: "Yaxşı. Hər şeyi çatdıraram. Hər halda deyim ki, bizim qərarımız, şübhəsiz, çox soyuq qarşılanacaqdır". Yenə həmin gün Hüseynov bu barədə Qafqaz Bürosuna məlumat verdi. Bu məsələ üzrə Qafqaz Bürosunun fövqəladə plenumunu çağırmaq, Nərimanov və Myasnikyanı Tiflisə dəvət etmək qərara alındı.

Tiflisdə keçirilən Qafqaz Bürosu plenumunun iclasında ermənilər Qafqaz Bürosunun 5 iyul tarixli qərarının qəbul edilməsində Stalinin əsas rol oynadığını sübut etməyə çalışırdılar. Lakin hər hansı dəyişikliyə nail ola bilmədilər.

Azərbaycan SSR özünün ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa məcburi şəkildə muxtariyyət verilməsi nəticəsində yeni şəraitlə qarşılaşmışdı. Ermənistan isə Dağlıq Qarabağ məsələsi ilə bağlı olaraq Qafqaz Bürosu ilə Azərbaycan arasında münasibətləri kəskinləşdirməyə, Dağlıq Qarabağa muxtariyyət verilməsilə onun işlərinə qarışmaq imkanlarından istifadə edərək, bu bölgəyə olan iddialarını həyata keçirməyə çalışırdı.

5 iyul qərarı qəbul edildikdən sonra Azərbaycan rəhbərliyi tərəfindən onun həyata keçirilməsinə başlanmalı idi. Bununla əlaqədar olaraq Azərbaycan MİK Rəyasət Heyətinin həmin ilin 19 iyul tarixli iclasında Nərimanovun Tiflis səfərinin yekunları bəyənilmiş, Azərbaycan KP MK Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul tarixli iclasında isə muxtar vilayətin əsasnaməsinin hazırlanması üçün komissiya yaradılmışdı.

1923-cü il iyulun 1-də Azərbaycan KP MK Rəyasət Heyətinin iclası Kirovun sədrliyilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən ibarət qərar qəbul etdi. Azərbaycan MİK-ə Dağlıq Qarabağa muxtariyyət vermək, mərkəz Xankəndi olmaqla "Muxtar Qarabağ vilayəti" yaratmaq təklif olundu. Sərhədlərlə bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev - sədr, üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradıldı və s.

1923-cü il iyulun 4-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi də eyni məzmunlu qərar qəbul etdi. İyulun 7-də Komitədə M.B.Qasımov (1879-1949) və Ə. M.Xanbudaqovun (1893-1937) imzası ilə "Dağlıq Qarabağ muxtar vilayəti yaradılması haqqında" dekret verildi.

Dekret preambula, 4 bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, Azərbaycan KP MK-nın qərarı ilə dekretin adı arasında fərq vardır, çünki Qarabağın aran və dağlıq hissəsini muxtar vilayət kimi bir yerdə ayırmaq əvəzinə, yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Dekretin "Qarabağ Muxtar vilayəti" deyil Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılması diqqəti cəlb edir.




Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olundu.

Beləliklə, Qarabağa muxtariyyət verməyə məcbur olan Azərbaycan rəhbərliyi onun aran hissəsini ayıraraq yalnız dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu vermişdi.

Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi də maraq doğurur. Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan KP MK Qafqaz Bürosunun 5 iyul tarixli qərarının onu təmin etmədiyini bildirmiş və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlamışdı.

Lakin sonra prosesi son məqsədinə uyğunlaşdırmağa başlamış, Dağlıq Qarabağ uğrunda mübarizə belə bir formula almışdı: Dağlıq Qarabağa muxtariyyət verilməsindən onun Azərbaycanın idarəsi altından çıxarılmasına- Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə doğru!

Bu formulanın əsasınında Dağlıq Qarabağda və onun ətrafında erməni şovinizminin gücləndirilməsi durúrdu. İş o yerə çatmışdı ki, Rusiya KP MK XII qurultayında (1923, 17-25 aprel) K.Radek Azərbaycanda erməni şovinizmindən bəhs etmişdi.

Ermənilər çox keçmədən əsl niyyətlərini açıqladılar. Şaduns 13 iyunda Zaqafqaziya Ölkə Komitəsinə yazdı ki, "bu muxtar vilayət (Dağlıq Qarabağ) bilavasitə Zaqafqaziya Ölkə Komitəsilə bağlı olmalıdır; "Zaqfederasiyanın rəhbərləri problemin belə alternativ, daha ağıllı həllinə getmədilər".

Bununla o, Ermənistanın Dağlıq Qarabağla bağlı sonrakı fəaliyyətinin əsas formulası haqqında yuxarıda söylənənləri çox aydın təsdiq edir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi və onun ətrafında yaranan məsələlərə münasibət Kirovun AKP-nin VI qurultayında (1924, 5 may) çıxışı ilə yekunlaşdırılır. O, həmin qurultayda demişdir: bu məsələni biz, nəhayət həll etdik və şübhəsiz tamamilə düzgün iş gördük. Bu məsələni, əsasən, yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə yoxdur...

Göründüyü kimi, Qarabağda və bütün Qafqazda çox mürəkkəb və ziddiyyətli proseslərin getdiyi bir şəraitdə ermənilər təşkilatlanaraq bu ərazini Ermənistan tərkibinə keçirmək, bu mümkün olmadıqda isə muxtariyyət statusu almaq üçün var gücləri ilə çalışıblar. Sovet dövründə dəfələrlə DQMV-nin Ermənistan tərkibinə verilməsi ilə bağlı məsələ qaldırsalar da, buna nail ola bilmədilər. Nəhayət Qobaçovun hakimiyyətə gəlişindən sonra Qərb dövlətlərinin və xaricdəki erməni diasporunun da fəal dəstəyi ilə münaqişəni alovlandırdılar ki, bu da çox keçməmiş müharibə fazasına keçdi. 1-ci Qarabağ müharibəsində Ermənistan Qarabağı hərbi yolla ələ keçirib işğal edə bilsə də, 26 il sonra Azərbaycan eyni yolla öz ərazisini işğaldan azad etdi. DQMV 1991-ci ildə ləğv edilib və bu bölgə hazırda Azərbaycanın digər bölgələri kimi adi statusa malikdir.

***Altay***
***Yazıda Elmlər Akademiyası Tarix İnstitutunun materiallarından istifadə edilmişdir***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

16 dekabr

## Cek Pol Konor Makqreqora 50 milyon dollar təklif edib



Videobloger və boksçu Cek Pol döyüş üçün irlandiyalı MMA ustası Konor Makqreqora 50 milyon dollar təklif edib. AZƏRTAC xəbər verir ki, C.Pol bu barədə "Instagram" səhifəsində yazıb. O, 84 kiloqram çəki dərəcəsində baş tutacaq döyüşün hər biri 3 dəqiqə olmaqla 8 raunddan ibarət olacağını açıqlayıb.

Cek Pol Mayk Taysonla Roy Cons arasında noyabrın 29-da Los-Ancelesdə baş tutan nümayiş xarakterli döyüşündən əvvəlki qarşılaşmaların birində iştirak edib. O, ikinci raundda rəqibi Milli Basketbol Assosiasiyasının (MBA) oyunçusu Neyt Robinsonu nokauta salıb və bundan sonra "Twitter" səhifəsində K.Makqreqoru mübarizəyə çağırmağa hazır olduğunu yazıb.

Otuz iki yaşlı irlandiyalı boksçunun aktivində 22 qələbə və dörd məğlubiyyət var. UFC-də ilk titulunu 2015-ci ildə qazanan peşəkar rinq ustası, daha sonra təşkilatda müxtəlif çəki dərəcələrində (yüngül və yarım yüngül) eyni vaxtda çempion olan döyüşçü kimi tarixə düşüb. İyirmi üç yaşlı C.Pol peşəkar boksda iki döyüş keçirib və hər ikisində də qələbə qazanıb.

## Xuan Kuadrado 36 milyon avro müqabilində "Yuventus"dan ayrılacaq



Kolumbiyalı Xuan Kuadrado Çindən "Yuventus"dan ayrılmağı düşündürən çox gəlirli təklif alıb. "Calciomercato.it" nəşrinin yazdığına görə, "Quançjou Everqrand" klubu 32 yaşlı X.Kuadradoya 36 milyon avro təklif edib. İllik maaşı 12 milyon avro olan futbolçu yeni klubla üçillik müqavilə imzalamağa hazırdır. "Yuventus" ilə mövcud müqaviləsi 2022-ci il iyunun 30-dəkdir.

Kolumbiya millisinin oyunçusu (94 matç, 8 qol) "İndependiente Medellin" (bütün yarışlarda 32 matç, 2 qol), "Udinese" (24 matç), "Lecce" (33 matç, 3 qol), "Fiorentina" (106 matç, 26 qol), "Çelsi" (15 matç) və "Yuventus"un (195 matç, 17 qol) heyətində çıxış edib.

## Detektiv əsərlər müəllifi Con le Karre vəfat edib

Britaniyalı yazıçı, detektiv əsərlərinin müəllifi Con le Karre ömrünün 89-cu ilində dünyasını dəyişib. Bu barədə Böyük Britaniyanın "Curtis Brown" agentliyi məlumat yayıb. Məlumatda qeyd olunub ki, dünyada Con le Karre kimi tanınan Devid Kornuell, COVID 19-la əlaqəsi olmayan qısa xəstəlikdən sonra İngiltərənin Kornuell bölgəsində vəfat edib.



Con le Karre "soyuq müharibə" dövrünün simasını göstərən və sonrakı illərdə hakimiyyətdə olanlara cəsarətlə həqiqəti söyləyən İngilis ədəbiyyatının nəhəngi sayılır.

Gənclik illərində Britaniyanın MI6 kəşfiyyat və MI5 əks-kəşfiyyat xidmətlərində çalışan Con le Karre onlarla hekayə və 25 casus romanların müəllifidir. Onun ən məşhur əsərləri "Rus evi", "Casus, itil burdan!", "Soyuqdan gələn casus" hesab olunur. Müəllifin ondan çox kitabı ekranlaşdırılıb və dünyanın bir çox dillərinə tərcümə olunub. Onun 2011-ci ildə lentə alınmış "Casus, itil burdan!" əsəri Britaniya Kino və Televiziya Sənəti Akademiyasında (BAFTA) iki mükafata layiq görülüb və 3 nominasiya üzrə "Oskar"a təqdim olunub. "The Times" qəzeti Con le Karreni müharibədən sonrakı dövrün ən yaxşı 50 britaniyalı yazıçılar siyahısına daxil edib.

## Əlcəzairli tennisçi danışılmış oyunlara görə ömürlük diskvalifikasiya edildi

Əlcəzairli tennisçi Aymen İxlef danışılmış oyunlara görə, 100 min dollar cərimə olunmaqla yanaşı, ömürlük cəza alıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, sanksiya dekabrın 11-də qüvvəyə minib. İdmançının hər hansı bir tennis yarışında oynaması və ya başqa şəkildə iştirak etməsi qadağan edilib.



İyirmi üç yaşlı A.İxlef, dörd dəfə danışılmış görüşlərdə iştirak edib, iki dəfə belə oyunlara digər tennisçiləri cəlb edib. Bundan başqa, o, istintaqla əməkdaşlıqdan da imtina edib.

## Xəbərdarlıq: Dağlıq rayonlarda yollar buz bağlayacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə dekabrın 16-sı gündüz Azərbaycanın qərb rayonlarından başlayaraq ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçə-



cəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir 15-20 metr/saniyəyədək güclənəcək.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° enəcək. Dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var. Qeyri-sabit hava şəraiti dekabrın 18-i gündüzədək davam edəcək.

## Gəncədə evdən oğurluq edən şəxs yaxalanıb

Gəncədə evdən oğurluq edən şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kəpəz Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 10 min manat məbləğində pul, 5 min manat dəyərində geyim və məişət



əşyaları oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Q.Qəhrəmanov saxlanılıb. Faktla bağlı rayon polis idarəsində araşdırmalar aparılır.

## Yasamalda soyğunçuluq edən şəxsin digər cinayətləri üzə çıxıb

Yasamalda soyğunçuluq edən şəxsin digər cinayətləri müəyyənləşib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsinin cinayət axtarışı idarəsi və Yasamal Rayon Polis İdarəsinin 28-ci polis bölməsi əməkdaşları apardıqları əməliyyat tədbirləri nəticəsində soyğunçuluq etdiyinə görə tutulmuş Ə.Behbudovun Binəqədi rayonu ərazisində ayrı-ayrı vaxtlarda 3 nəfərin çantalarından içərisində pul və sənəd olan pulqabılarını oğurlaması da müəyyən edilib. Faktla bağlı rayon polis idarəsində araşdırmalar aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600